HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

№ 44 (886) ■ 15 noyabr 2017 www.vergiler.az Qiyməti: 60 qəp.

## Yeni Azərbaycan Partiyası 25 illik yubileyini qeyd edir

**Noyabrın 14-də Heydər Əliyev Mərkəzində Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illiyinə həsr edilmiş təntənəli yubiley mərasimi keçirilib. Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyev mərasimdə iştirak edib.**




Yubiley mərasimində nitq söyləyən dövlətimizin başçısı iyirmi beş il əvvəl əsası qoyulmuş partiyanın Azərbaycan tarixində xüsusi rolunu qeyd edib: «O vaxt 91 vətənpərvər insan bu tarixi missiyanı öz üzərinə götürüb Heydər Əliyevə müraciət göndərmişdi. Onların bu əməyi Azərbaycan tarixində öz layiqli yerini tutmuşdur və partiyamızın yaradılması ölkəmizdə gedən xoşagəlməz proseslərin gələcəkdə qarşısının alınmasında xüsusi rol oynamışdır». Azərbaycan Prezidenti vurğulayıb ki, sovet dönəmində ən geridə qalmış respublikalardan biri olan Azərbaycan məhz Heydər Əliyevin dövründə ən qabaqcıl ölkəyə çevrilib: «1990-cı illərin əvvəllərində - xalqımız üçün ən ağır dövrdə yenə də Heydər Əliyev öz liderlik keyfiyyətlərini göstərmiş, böyük cəsarət, vətənpərvərlik nümayiş etdirmiş və qanlı 20 Yanvar hadisələrini Sovet İttifaqının mərkəzində, Moskva şəhərində pisləmişdir. Mən o günü yaxşı xatırlayıram. Mən fəxr edirəm ki, o gün atamla birlikdə idim və Heydər Əliyevin o qətiyyətli çıxışı, Vətəninə, xalqına olan bağlılığı bütün Azərbaycan xalqına bir daha göstərdi ki, o, xalqa bağlı olan böyük bir liderdir».

Dövlətimizin başçısı bildirib ki, ulu öndər Naxçıvanda işləyərkən müstəqilliyə gedən yolu açdı. Naxçıvanda Azərbaycan Xalq Cümhuriyyətinin bayrağını dövlət bayrağı elan etdi və atdığı bu addımlar ona xalqın məhəbbətini daha da artırdı: «O illərdə torpaqlarımızın işğal altına düşməsi, iqtisadi böhran, sənaye böhranı, hərbi böhran demək olar ki, ölkəmizin gələcək müstəqil həyatına böyük təhlükə yaradırdı. Belə olan halda, əlbəttə ki, xalq öz ümidini Heydər Əliyevə bağlamışdı. Ona görə də Yeni Azərbaycan Partiyasının yaradılması tarixi zərurət idi. Partiya yaradılandan sonra bütün cəmiyyətimizdə böyük dəstəyə malik oldu».

Azərbaycan Prezidenti qeyd edib ki, o illərdə bizim milli ideologiyamız - azərbaycançılıq ideologiyası təqdim edildi və xalq tərəfindən bəyənildi. Həmin dövrdə Azərbaycan beynəlxalq təcriddən çıxa və Dağlıq Qarabağ həqiqətlərini dünya ictimaiyyətinə çatdıra bildi: «Biz beynəlxalq aləmdə fəal siyasət apararaq Azərbaycanı tanıtmaq istiqamətində böyük işlər görə bildik. İqtisadi islahatlar, onların təməli məhz o illərdə qoyulmuşdu. O vaxt ölkə iqtisadiyyatının inkişafı üçün xarici sərmayənin cəlb edilməsi əsas şərt idi. Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan bunu da bacardı. O illərdə Azərbaycana cəlb olunan xarici sərmayə demək olar ki, həmin dövrdə və hətta bu gün də ölkəmizin iqtisadi inkişafını şərtləndirən əsas amillərdən biridir. Bir sözlə, 1993-2003-cü illərdə Azərbaycanda aparılmış böyük işlər ölkəmizi gücləndirdi. Azərbaycan bütün çətin sınaqlardan şərəflə çıxa bilmişdir və bugünkü sürətli inkişafın da təməli o illərdə qoyulmuşdur».

**Ulu öndər Heydər Əliyevin adı ilə bağlı olan Yeni Azərbaycan Partiyasının yaradılması ölkənin gələcək inkişafının təməl prinsipini müəyyən edən tarixi zərurət idi**

Dövlətimizin başçısı onu da vurğulayıb ki, sonrakı 14 il ərzində Azərbaycan ulu öndər Heydər Əliyevin siyasətinə sadiq qalaraq uğurla, inamla inkişaf edib: «Azərbaycan tarixdə heç vaxt indiki qədər güclü olmamışdır. Mən bu gün son 14 il ərzində görülmüş işləri sadalamaq istəmirəm. Görülən işlər göz qabağındadır. Onu deyə bilərəm ki, Azərbaycan bütün istiqamətlər üzrə konseptual yanaşma və proqramlar əsasında çox böyük tarixi uğurlara imza atıb. Azərbaycan beynəlxalq aləmdə böyük nüfuz qazanıb. Təkcə BMT Təhlükəsizlik Şurasına 155 ölkənin dəstəyi ilə seçilməyimiz faktını qeyd etmək kifayətdir ki, beynəlxalq aləm görsün Azərbaycana dünya miqyasında nə qədər böyük rəğbət və dəstək var».

Prezident İlham Əliyev qeyd edib ki, bu gün Yeni Azərbaycan Partiyası öz sıralarında 700 mindən çox insanı birləşdirir, onların 40 faizi gənclərdir: «Bu gün partiyamızın fəaliyyəti, ideyaları, apardığı siyasət gənc nəsil üçün də cəlbedicidir və bu, çox müsbət haldır. Bu, onu göstərir ki, Azərbaycanda bundan sonra da uzunmüddətli, dayanıqlı inkişaf təmin olunacaq və partiyanın təbliğ etdiyi, bəyan etdiyi prinsiplər bu gün xalq tərəfindən tam dəstəklənir. İndi Azərbaycanda görülmüş işlər, ölkəmizin uğurlu inkişafı, əlbəttə, hər bir vətənpərvər insana əyani şəkildə göstərir ki, bugünkü iqtidarın apardığı siyasət yeganə düzgün siyasətdir».

Son 25 il ərzində YAP-ın uğurla inkişaf etdiyini və bütün seçkilərdə - həm parlament, həm də prezident seçkilərində böyük səs çoxluğu ilə qalib gəldiyini diqqətə çatdıran Prezident İlham Əliyev vurğulayıb ki, Azərbaycanda bu partiyaya rəqib ola biləcək hər hansı başqa siyasi qüvvə mövcud deyil: «Yeni Azərbaycan Partiyası, sözün əsl mənasında, ümumxalq partiyasına çevrilibdir. Cəmiyyətimizin bütün təbəqələri partiyamızda birləşib. Uğurlarımızın səbəblərindən biri də məhz ondan ibarətdir ki, əldə edilmiş uğurlar bizə əlavə stimul verir. Çatışmayan cəhətləri aradan qaldırmaq, sosial ədaləti daha da böyük dərəcədə bərqərar etmək üçün biz bundan sonra da fəal çalışmalıyıq».

Yubiley mərasimi geniş konsert proqramı ilə davam edib.

## Prezident İlham Əliyevin Gəncə şəhərinə səfəri

**Azərbaycan Prezidenti İlham Əliyev noyabrın 10-da Gəncə şəhərində səfərdə olub. Dövlətimizin başçısı əvvəlcə ulu öndər Heydər Əliyevin şəhərin mərkəzində ucaldılan abidəsini ziyarət edib, önünə gül dəstəsi qoyub.**



Gəncə Dövlət Filarmoniyasının yeni binasının açılışında iştirak edən Prezidenti İlham Əliyevə bildirilib ki, altımərtəbəli binada inzibati, məşq, qrim, rejissor və istirahət otaqları, bufet yaradılıb. Burada, eyni zamanda, 1200 nəfərlik konsert və 300 yerlik iclas zalları, 10 loja və 1 VİP loja da tamaşaçıların ixtiyarına veriləcək. Filarmoniyada kitab satışı da həyata keçiriləcək. Ərazidə açıq havada yay konsert meydançası, baxış qülləsi, 500 avtomobil yerlik yeraltı dayanacaq və ümumi sahəsi 2 min kvadratmetr olan iki korpusdan ibarət ikimərtəbəli qalereya inşa edilib. Filarmoniyanın yeni binasında mədəni tədbirlərin yüksək səviyyədə keçirilməsi, əməkdaşların və yaradıcı kollektivlərin səmərəli fəaliyyəti üçün hərtərəfli şərait yaradılıb.

Sonra şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşən dövlətimizin başçısı bildirib ki, Gəncə qədim mədəniyyət mərkəzidir və öz qədimliyini saxlamaqla bu gün yeniləşir, gözəlləşir: «Mən son illər ərzində Gəncədə dəfələrlə olmuşam. Bu, mənim Prezident kimi Gəncəyə 15-ci səfərimdir. Gəncənin yeniləşməsi ilə bağlı bir çox addımlar atılıbdır. Bu gün həm qədim, həm müasir Gəncə nəinki Azərbaycanın, regionun mərkəzlərindən biridir. Burada infrastrukturla bağlı bir çox layihələr icra edilib. Qazlaşdırma 100 faiz səviyyəsindədir, elektrik enerjisi tam təmin edilir, içməli su layihəsi icra olunur. Bildiyiniz kimi, bu layihə çox böyük vəsait tələb edən layihədir, texniki cəhətdən də o qədər də asan layihə deyil. Bu layihənin icrası üçün əlavə addımlar atılacaq. Əminəm ki, 2019-cu ildə Gəncədə içməli su problemi də tamamilə aradan qaldırılacaq və sakinlər 24 saat təmiz içməli su ilə təmin olunacaqlar».

Dövlətimizin başçısı Gəncənin yol infrastrukturunun təkmilləşdirilməsi, müasirləşməsi üçün addımlar atıldığını, yenə də bu sahədə işlər görüləcəyini bildirib. Qeyd edib ki, gələn ildən başlayaraq Gəncə-Gürcüstan sərhədi avtomobil yolunu da genişləndiriləcək. Bakı-Gəncə sürət qatarının işə salınması nəzərdə tutulur. Bundan başqa, Gəncədə sosial layihələrlə, sənaye layihələri ilə bağlı bir çox gözəl işlər görülüb və növbəti illərdə bu günə qədər həllini tapmayan, ancaq həllini gözləyən məsələlər də həll ediləcək.

Səfər çərçivəsində İsmət Qayıbov adına Gəncə şəhər 1 saylı tam orta məktəbin binasında aparılan əsaslı təmir və yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış olan Azərbaycan Prezidenti, həmçinin, «Yeni Gəncə» yarımstansiyasının, «Gəncə Mall» Ticarət Mərkəzinin, Azərbaycan Dövlət Aqrar Universitetinin tələbələri üçün yeni inşa edilmiş 514 yerlik yataqxana kompleksinin, yeni istifadəyə verilən «Grand Qafqaz» Ticarət Kompleksinin və Mirzə Şəfi Vazeh muzeyinin açılışında da iştirak edib.

Sonra görkəmli dövlət xadimi Əziz Əliyevin adını daşıyan mədəniyyət və istirahət parkının açılışına qatılan dövlətimizin başçısına burada yaradılan şəraitlə bağlı məlumat verilərək bildirilib ki, ümumi ərazisi 2 hektar olan park şəhərin «Gülüstan» yaşayış massivindəki Əziz Əliyev prospektində yerləşir. Bu istirahət məkanının inşasına 2016-cı ilin martında başlanılıb, tikinti işləri 2017-ci ilin oktyabrında başa çatdırılıb. Parkın ərazisində yaşıllıq zolaqları salınıb, dekorativ gül kolları əkilib, geniş abadlıq-quruculuq işləri görülüb. Burada dörd fəvvarə quraşdırılıb. Yeni istirahət məkanında sakinlərin, eləcə də uşaqların asudə vaxtlarının səmərəli təşkili üçün hər cür şərait yaradılıb.

## Azərbaycan nefti ölkə iqtisadiyyatının inkişafında mühüm rol oynayır

Noyabrın 8-də Heydər Əliyev Mərkəzində Azərbaycanda iki milyard ton neft hasil olunması münasibətilə təntənəli mərasim keçirilib. Mərasimdə nitq söyləyən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bildirib ki, bu, tarixi bir hadisədir. Azərbaycan neftçiləri bütün dövrlərdə xalqımıza xidmət ediblər. Müstəqillik dövründə onların zəhməti hesabına Azərbaycan böyük iqtisadi potensial yarada bilmişdir. Neftçi Azərbaycanda çox şərəfli və hörmətli peşədir, həmişə belə olub, bu gün də belədir: «İndi dünya ictimaiyyəti də bunu bilir ki, dünyada sənaye üsulu ilə ilk dəfə neft 1846-cı ildə Azərbaycanda çıxarılmışdır və o vaxt Azərbaycan dünya neftinin əsas hissəsini təmin edirdi. Tarixdə ilk dəfə olaraq XX əsrin ortalarında dənizdə də neft Azərbaycan neftçiləri tərəfindən çıxarılmışdır və bu da tarixi hadisədir. Azərbaycan neftçiləri sovet dövründə Xəzərin bütün neft-qaz yataqlarının aşkar olunmasında əsas rol oynamışlar, Rusiya Federasiyasında yeni neft yataqlarının kəşfində onların rolu çox böyükdür. Təsadüfi deyil ki, «İkinci Bakı», «Üçüncü Bakı» adlandırılan yerlər var ki, bu yerlər Azərbaycan neftçilərinin adı ilə bağlıdır. Neftçilərimiz xarici ölkələrdə də işləyirdi, oraya ezam olunmuşdular. Əlbəttə ki, bu, Azərbaycanda neft sənayesində çalışan insanların peşəkarlığını, fədakarlığını göstərir».

1971-ci ildə ulu öndər Heydər Əliyevin iştirakı ilə Azərbaycanda 1 milyardıncı ton neftin hasilatı ilə bağlı keçirilən təntənəli mərasimi xatırladan Prezident İlham Əliyev bildirib ki, 1970-1980-ci illərdə ümummilli lider Azərbaycan Respublikasının ümumi inkişafına çox böyük töhfə vermişdir, o cümlədən neft sənayesinin inkişafı üçün çox böyük addımlar atılmışdır. Dövlətimizin başçısı müstəqilliyimizin ilk illərində neft sənayesində yaranmış böhrana diqqət çəkmiş, Azərbaycan iqtisadiyyatına, sənayesinə, o cümlədən neft sənayesinə vurulmuş zərbələrin çox ağır olduğunu qeyd etmişdir. Bildirmişdir ki, həmin illərdə çıxış yolu Heydər Əliyevin neft strategiyası idi: «1994-cü ildə «Əsrin kontraktı»nın imzalanması bu sahədə dönüş yaratdı. O vaxt Azərbaycan gənc müstəqil dövlət idi və çox ağır çağırışlarla üz-üzə qalmışdı, iqtisadiyyat demək olar ki, tamamilə dağıdılmışdı, sənaye istehsalı iflic vəziyyətdə idi, inflyasiya min faizlərlə ölçülürdü, kütləvi işsizlik hökm sürürdü, yoxsulluq dərəcəsi artırdı. Belə bir vəziyyətdə Azərbaycana xarici sərmayəni gətirmək doğrudan da böyük müdriklik və uzaqgörənlik tələb edirdi və Heydər Əliyevin neft strategiyası bu çağırışlara cavab verdi. Xarici tərəfdaşlarla 1994-cü ildə imzalanmış «Əsrin kontraktı» bizim üçün bir çıxış yolu idi, bizə bir güc verdi, nəfəs verdi, investisiya gətirdi».

Bu gün Azərbaycanın dünyada neft və qaz hasil edən ölkə kimi tanındığını, dünyadakı rolumuzu, gücümüzü artırdığını vurğulayan Prezident İlham Əliyev Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin işə düşməsinin iqtisadi inkişafa təsir göstərdiyini xatırladıb, «Əsrin kontraktı», «Şahdəniz» yatağı üzrə imzalanmış və icra edilən kontraktların əhəmiyyətindən bəhs edib, Dövlət Neft Şirkətinin böyük beynəlxalq şirkətə çevrildiyini diqqətə çatdırıb. Dövlətimizin başçısı qarşıdakı illərdə neft-qaz sənayesində nəzərdə tutulan perspektiv layihələrdən bəhs edərək bildirib ki, proqnozlarımız həyatda öz təsdiqini tapacaq, «Azəri-Çıraq-Günəşli» yatağı minimum 2050-ci ilə qədər işləyəcək, «Şahdəniz» yatağı minimum 100 il bundan sonra da fəaliyyət göstərəcək: «Biz yaxın gələcəkdə «Abşeron» yatağından qaz hasilatını gözləyirik. «Ümid», «Babək» yataqlarının da çox böyük perspektivləri var. Gələn ildən Dövlət Neft Şirkəti bu yataqlarda da fəal iş aparacaqdır».

Tədbirdə çıxış edən natiqlər Azərbaycanın neft sahəsində qazandığı nailiyyətlər və perspektivlərdən bəhs ediblər. Sonra Prezident İlham Əliyev Azərbaycan Respublikasının neft sənayesi sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Xoşbəxt Yusifzadəyə birinci dərəcəli «Əmək» ordenini təqdim edib. Sonda Azərbaycanın neft sənayesinin tarixinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

### BU NÖMRƏMİZDƏ

VERGİ MƏCƏLLƏSİNƏ NƏZƏRDƏ TUTULAN DƏYİŞİKLİKLƏ BAĞLI QANUN LAYİHƏSİ HAZIRLANIB 2

İQTİSADİYYATIN ŞAXƏLƏNDİRİLMƏSİ MÜHÜM ŞƏRTDİR 3

VERGİ ÖDƏYİCİLƏRİ İLƏ PARTNYORLUQ MÜNASİBƏTLƏRİ GENİŞLƏNDİRİLİR 4

MAKROİQTİSADİ SABİTLİK İSTİQAMƏTİNDƏ MÜSBƏT MEYİLLƏR FORMALAŞIB 5

# Vergi Məcəlləsinə nəzərdə tutulan dəyişikliklə bağlı qanun layihəsi hazırlanıb

**Vergilər Nazirliyində «Azərbaycan Respublikasının milli iqtisadiyyatının perspektivləri üzrə Strateji Yol Xəritəsi»nin Tədbirlər Planında nəzərdə tutulmuş səmərəli vergi sisteminin təşviqi sahəsində görülmüş işlər müzakirə edilmişdir.**

Vergilər və İqtisadiyyat nazirliklərinin, eləcə də Mərkəzi Bankın nümayəndələrinin iştirakı ilə keçirilmiş görüşdə çıxış edən Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru Samirə Musayeva vergilər nazirinin müvafiq əmri ilə yaradılmış işçi qrupun fəaliyyəti ilə bağlı məlumat vermişdir: «Strateji yol xəritələrində müəyyən edilmiş tədbirlərin icrası məqsədilə kiçik və orta sahibkarlıq subyektlərinin üzləşdiyi problemlərlə yaxından tanış olmaq, vergi qanunvericiliyinin və inzibatçılığının təkmilləşdirilməsi istiqamətində sahibkarların rəy və təkliflərini müzakirə etmək üçün görüşlər keçirilmişdir».



*Strateji yol xəritələrində müəyyən edilmiş tədbirlərin icrası məqsədilə kiçik və orta sahibkarlıq subyektlərinin üzləşdiyi problemlərlə yaxından tanış olmaq, vergi qanunvericiliyinin və inzibatçılığının təkmilləşdirilməsi istiqamətində sahibkarların rəy və təkliflərini müzakirə etmək üçün silsilə görüşlər keçirilir*

Qeyd olunmuşdur ki, indiyədək «Səfirlik və digər əhəmiyyətli dövlət və qeyri-dövlət saytlarında yerləşdiriləcək nümunəvi məlumat forması»nın hazırlanması üçün işlər görülmüşdür. Vergilər Nazirliyinin və ölkəmizin xarici ölkələrdəki səfirlik, daimi nümayəndəlik və konsulluqlarının rəsmi internet səhifələrində Azərbaycan və ingilis dillərində «Azərbaycan Respublikasında xarici investisiyalar üçün əlverişli vergi mühiti» başlığı altında materiallar yerləşdirilmişdir. Pərakəndə ticarət və ictimai-iaşə fəaliyyəti ilə məşğul olan vergi ödəyiciləri tərəfindən malların təqdim edilməsi üzrə nağdsız əməliyyatlara vergi güzəştlərinin tətbiqi mexanizmi və vergi ödəyicilərində keçirilmiş vergi nəzarəti tədbirləri nəticəsində onlara hesablanmış vergi və maliyyə sanksiyalarının ödəmə müddətindən tez ödənilməsinə görə maliyyə sanksiyaları üzrə güzəştlərin tətbiq edilməsi mexanizmi işlənib hazırlanmışdır. Bununla yanaşı, istehsal sahəsi, daşınmaz əmlak və işçi qüvvəsi ilə Bakı, Sumqayıt, Xırdalan şəhərləri və Abşeron rayonu istisna olmaqla, digər regionlarda ixrac yönümlü məhsulların istehsalı fəaliyyəti ilə məşğul olan ixracatçılara vergi güzəştlərinin tətbiqi, müəyyən edilmiş şərtlər daxilində özəlləşdirilən dövlət müəssisələrinin əmlak vergisi üzrə növbəti üç il ərzində vergi güzəştlərinin tətbiqi ilə əlaqədar mexanizmlər də hazırlanmışdır.

S.Musayeva bildirmişdir ki, ölkənin sosial-iqtisadi siyasəti nəzərə alınmaqla vergi güzəştlərinin və azadolmalarının monitorinqini aparmaq, onların səmərəliliyini müəyyən etmək, vergi qanunvericiliyində müvafiq dəyişikliklərin edilməsi ilə bağlı layihə də hazırlanmışdır. Sabit vergi məbləği haqqında qəbzin əhatə dairəsinin genişləndirilməsi, eləcə də hüquqi şəxslərin məlumat dəyişikliyinin elektron qaydada həyata keçirilməsi, məlumat dəyişikliyi prosedurunun sadələşdirilməsi kimi məsələlər nəzərdə tutulmuşdur.

**Aytən NƏBİYEVA**

# Vergi ödəyiciləri ilə maarifləndirici dialoqlar davam etdirilir

**Noyabrın 8-də Vergilər Nazirliyi yanında Kiçik sahibkarlıqla iş departamenti tərəfindən Bakı şəhəri, Nizami Rayon İcra Hakimiyyətinin inzibati binasında paytaxt ərazisində qeydiyyatda olan, iqtisadiyyatın müxtəlif sektorlarında çalışan kiçik sahibkarlıq subyektlərinin nümayəndələri ilə görüş keçirilib. Dialoq formatında keçirilən tədbirdə vergi qanunvericiliyinə qanunvericiliyə edilmiş dəyişikliklərdən irəli gələn tələblərin və tətbiq olunan yeni qaydaların yerinə yetirilməsi, könüllü əməletmənin vəziyyəti müzakirə olunub.**

Görüşdə çıxış edən Kiçik Sahibkarlıqla İş Departamentinin baş direktorunun müavini Tahir Salmanov bildirib ki, ölkəmizdə sahibkarlığın inkişafının dəstəklənməsi, özəl sektorun fəaliyyətinin genişləndirilməsi, iqtisadiyyata investisiya qoyuluşlarının stimullaşdırılması istiqamətində həyata keçirilən iqtisadi siyasətin tərkib hissəsi olaraq vergi sistemində də geniş islahatlar aparılır. İslahatlar zamanı əsas diqqət kiçik və orta sahibkarlıq (KOS) subyektlərinə yönəldilir. Bu sahədə səyyar vergi yoxlamalarının sayı məhdudlaşdırılır və elektron yoxlama metodu tətbiq edilir. Məqsəd daha çox məlumatların ötürülməsi, xidmət çeşidlərinin artırılması, bu kateqoriya üzrə sahibkarlıq subyektlərinin vergi və inzibati yükünün azaldılması ilə könüllü əmələtmə səviyyəsini yüksəltməkdir.

Departamentin Vergi ödəyicilərinə xidmət və uçot idarəsinin direktoru Nadir Cəbrayılov vergi ödəyicilərini dövriyyələrini düzgün göstərməyi və sənədləşdirmə işlərini qaydasına salmağı, dürüst və dəqiqləşdirilmiş uçot sistemi qurmağı, üzərlərinə düşən öhdəlikləri vaxtında və qanunvericiliyə uyğun qaydada yerinə yetirməyi tövsiyə edərək bildirib ki, bu sahədə hər hansı problemlə üzləşən vergi ödəyiciləri lazımi kömək almaq üçün Vergilər Nazirliyinə, Bakı şəhəri Kiçik Sahibkarlıqla İş Departamentinə, nazirliyin Çağrı Mərkəzinə (195-1), və müvafiq ərazilərdəki vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərlər.

**Məqsəd ölkədə azad biznesin daha da genişlənməsi, yeni istehsal və xidmət müəssisələrinin yaradılması və bununla da sahibkarların əldə etdikləri gəlirin və dövlətin büdcəsinə ödədikləri vəsaitlərin həcminin artırılmasıdır**

Vergi ödəyiciləri yaradılmış bu əlverişli şəraitdən yararlanmalı, öz fəaliyyətlərini artırmalı, eyni zamanda vergi öhdəliklərinə riayət edilməsinə məsuliyyətlə yanaşmalıdırlar.

Departamentin Vergi ödəyicilərinə xidmət və uçot idarəsinin direktor müavini İlkin Həsənov Vergi Məcəlləsinə edilmiş dəyişikliklər və «Nağdsız hesablaşmalar haqqında» Azərbaycan Respublikası Qanununun tətbiqi, əmək müqaviləsinin rəsmiləşdirilməsi, kiçik sahibkarlıq subyektlərinin fəaliyyətində yaranan suallar və vergi inzibatçılığında sadələşdirilmiş prosedurlar barədə məlumat verib. Bildirib ki, nağdsız hesablaşmaların aparılmasına və əmək münasibətlərinin leqallaşdırılmasına nəzarət tədbirləri gücləndirilir, həmin sahələrdə vəziyyətin təhlil edilməsi və şəffaflığın artırılması ilə bağlı zəruri işlər görülür.

Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu departamentinin Xidmətin təşkili idarəsinin direktoru Azər Şirinov Azərbaycan Respublikasında həyata keçirilən vergi siyasəti, Vergilər Nazirliyi tərəfindən vergi qanunvericiliyinin təkmilləşdirilməsi, vergi inzibatçılığının möhkəmləndirilməsi, informasiya texnologiyalarının tətbiqi istiqamətində həyata keçirilən islahatlar, təqdim olunan xidmətlər barədə məlumat verib, vergi qanunvericiliyinə əməl edilməsinin vacibliyinin cəmiyyətə aşılanması və həyata keçirilən tədbirlər barədə ictimaiyyətin məlumatlandırılması məqsədilə bu cür tədbirlərin əhəmiyyətini qeyd edib.

A.Şirinov qeyd edib ki, vergi orqanlarının əsas vəzifələrdən biri sahibkarlıq subyektlərinə münasibətdə təkcə nəzarətedici orqan kimi yox, daha çox tərəfdaş kimi çıxış etməkdir. Bildirilib ki, bu gün ölkəmizdə kiçik və orta sahibkarlıq subyektlərinin sayı 250 mindən artıq olsa da, ümumi vergi daxilolmalarında onların payı çox aşağıdır. Vergi siyasətinin əsas prioritetlərindən biri kiçik və orta sahibkarlıq subyektlərinin milli sahibkarlıqda daha aparıcı təbəqəyə çevrilməsini təmin etməkdir. Başlıca məqsəd ölkədə azad biznesin daha da genişlənməsi, yeni istehsal və xidmət müəssisələrinin yaradılması və bununla da sahibkarların əldə etdikləri gəlirin və dövlətin büdcəsinə ödədikləri vəsaitlərin həcminin artırılmasıdır.

Sonra tədbir iştirakçılarının sualları cavablandırılıb. Sahibkarlar vergi orqanı tərəfindən tələb olunan sənədlərin təqdim edilməsi zamanı bəzi çətinliklərlə üzləşdiklərini, həmin sənədlərin göndərilməsi qaydalarının daha da təkmilləşdirilməsini, bəyannamə formalarında bir sıra texniki detalların və elektron xidmətlərin asanlaşdırılmasını təklif ediblər.

Sahibkarların suallarını cavablandıran vergi orqanı əməkdaşları bildiriblər ki, vergi qanunvericiliyinin və inzibatçılığının tətbiqi ilə bağlı onların üzləşdikləri çətinliklər ciddi şəkildə araşdırılacaq və həll olunması üçün müvafiq tədbirlər görüləcəkdir.

**E.CƏFƏRLİ**

# Vətəndaş müraciətlərinə vaxtında baxılır

2017-ci ilin oktyabr ayı ərzində vergi orqanlarına 8920 müraciət daxil olub ki, onların da 89,9%-i ərizə, 10%-i şikayət, 0,1%-i təklifdir.

Müraciətlərin 38%-i müxtəlif arayışların alınması, 34,3%-i kameral vergi yoxlamaları, 9,5%-i vergi borcları, 2,6%-i vergidən yayınma, nağd hesablaşmaların aparılması qaydalarının pozulması, qanunsuz sahibkarlıq fəaliyyəti, qalanları isə digər məsələlərlə bağlı olub.

Bütün müraciətlərə vaxtında baxılıb, onların 76,6%-i müsbət həll olunub.

Ay ərzində vergi orqanlarında ümumilikdə 502 vətəndaş qəbul edilib, onlara qanunvericilik çərçivəsində lazımi kömək göstərilib və ya müvafiq izahatlar verilib. Oktyabr ayının 20-də vergilər naziri tərəfindən Ağcabədi şəhərində keçirilmiş vətəndaşların səyyar qəbulu zamanı 6 rayonda yaşayan 33 vətəndaş qəbul edilib.

# Tvinninq layihəsi uğurla icra olunur

**Vergilər Nazirliyi milli vergi qanunvericiliyin və vergi inzibatçılığının təkmilləşdirilməsinə xüsusi önəm verir və bu sahədə mövcud olan qabaqcıl beynəlxalq təcrübəni öyrənərək tətbiq etməyə çalışır. Vergi ödəyicilərinə göstərilən xidmətlərin ildən-ilə təkmilləşdirilməsi, bu sahədə informasiya-kommunikasiya texnologiyalarının ən son yeniliklərinin tətbiqi Vergilər Nazirliyinin fəaliyyətinin prioritet istiqamətlərindəndir.**

Avropa İttifaqı ilə Tvinninq və TAIEX alətləri çərçivəsində ikitərəfli əməkdaşlıq vergi orqanlarında müasir idarəetmə və elektron alətlərdən istifadənin genişlənməsi, xidmətin təşkili, tədris və təlimin səviyyəsinin artırılması, şəffaflıq və məlumat mübadiləsi baxımından mühüm əhəmiyyət daşıyır.

Bu ilin mart ayından həyata keçirilən «Azərbaycan Respublikası Vergilər Nazirliyinə resurslardan optimal istifadə olunması və vergi ödəyicilərinə keyfiyyətli xidmətlərin göstərilməsində dəstək» tvinninq layihəsində İspaniya Krallığının və Fransa Respublikasının vergi administrasiyaları partnyor ölkələr kimi çıxış edirlər. Layihə Azərbaycan ilə Avropa İttifaqı arasında səmərəli əməkdaşlığın real nəticəsi olmaqla yanaşı, vergi ödəyiciləri ilə münasibətlərin qurulmasında və çevik vergi inzibatçılığının həyata keçirilməsində irəliyə doğru növbəti mühüm addım kimi qiymətləndirilir. Layihənin icra müddəti 27 ay, büdcəsi 1,3 milyon avrodur.

Layihə çərçivəsində vergi orqanlarında çalışan əməkdaşlar Avropanın tətbiq etdiyi yeni xidmət kanalları barədə məlumatlandırılması, təlimlərə cəlb olunması nəzərdə tutulmuşdur. Azərbaycanın vergi orqanı partnyor ölkələrin vergi administrasiyalarının ən yaxşı təcrübələrini ətraflı şəkildə öyrənir, yenilikləri tətbiq edir. Layihəyə əsasən, Vergilər Nazirliyinin və layihədə iştirak edən digər qurumların işçi heyətinin Aİ ölkələrinə təlim səfərlərinin təşkili, treninqlər, seminarlar, tədris, təlim kursları, təcrübə mübadiləsi həyata keçirilir.

Tvinninq layihəsinin icrasından 4 komponent üzrə beş mütləq nəticənin əldə olunması gözlənilir:

- vergi ödəyicilərinə xidmət prosesləri üzrə davamlı inkişaf proqramının reallaşdırılması;
- xidmətlərə tələbatın müəyyənləşdirilməsi və idarə olunması;
- vergi ödəyicilərinə göstərilən xidmətlərin əsas fəaliyyət göstəricilərinin müəyyən edilməsi və təkmilləşdirilməsi;
- qabaqcıl metodologiyalara əsaslanaraq bütün xidmət kanalları üzrə səmərəliliyin artırılması üçün məlumatların təhlili mexanizmlərinin yaradılması.

Beləliklə, bütün komponentlərin icrası vergi ödəyicilərinə göstərilən xidmətlərin ən müasir texnologiyalar və mexanizmlərlə aparılmasına imkan verəcək.

Layihə çərçivəsində artıq bir sıra seminarlar və təlimlər təşkil olunub. Noyabrın 6-8-də Vergilər Nazirliyi tərəfindən keçirilmiş ilk seminar xidmətlərə tələbatın idarə edilməsi sisteminin təhlilinə həsr olunub. Seminarda vergilər nazirinin müşaviri, benefisiar ölkə üzrə layihə rəhbəri Elçin Məmmədov, Çağrı Mərkəzinin direktoru Məhəmməd Yunusov və mərkəzin əməkdaşı Əfqan Orucov, Milli Gəlirlər Departamentinin Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu idarəsinin direktor müavini Niyaz Şükürov, Bakı şəhəri Kiçik Sahibkarlıqla iş Departametinin Vergi ödəyicilərinə xidmət və uçot idarəsinin direktor müavini İlkin Həsənov, 12 saylı Ərazi Vergilər Departamentinin Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu idarəsinin Vergi ödəyicilərinə xidmət şöbəsinin baş dövlət vergi müfəttişi Şəhriyar Hüseynov, Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu departamentinin Xidmətin təşkili idarəsinin Monitorinq və təhlil şöbəsinin rəhbəri Maya Əliyarzadə, həmin departamentin riskli vergi ödəyiciləri ilə iş şöbəsinin baş dövlət vergi müfəttişi Şahin Musabəyov və xarici ekspertlər, Fransanın vergi administrasiyasının mütəxəssisləri - Lanion şəhəri üzrə Hüquqi şəxslərin Vergi Xidməti İdarəsinin rəhbəri Françoise Perrin və Mərkəzi Şərq regionu üzrə Vergi Auditi Direktoratlığının rəhbəri Beatrice Sarrot Reynauld De Cresseneuilin iştirak ediblər.

Vergi qanunvericiliyinin təkmilləşdirilməsi sahəsində qarşıya çıxan məsələlərlə bağlı mütərəqqi təcrübələrini bölüşən seminar iştirakçıları müzakirələr zamanı xidmət standartlarının qabaqcıl Avropa meyarlarına uyğunlaşdırılmasına, bütün kanallarda xidmətlərin göstərilməsinə və keyfiyyətinin yüksəldilməsinə mühüm təsir göstərəcək həll yolları barədə mülahizələrini bildiriblər. Seminar iştirakçıları vergi ödəyicilərinin xəritəsinin təşkili, bunun səmərəsi haqqında müzakirələrdə fəal iştirak ediblər. Vergi ödəyicilərinin ehtiyac və tələbləri, bunları bilmək və müəyyən etmək üçün alətlər, təklif olunan xidmətlərlə vergi ödəyicilərinin ehtiyac və tələbləri arasındakı əlaqə geniş təhlil edilib, vergi ödəyicilərinin ehtiyaclarını necə müəyyənləşdirmək yolları araşdırılıb.

Azərbaycanda vergi ödəyicilərinə xidmət sahəsində yerli səviyyədə idarəçilik, xidmət tələbatının idarə olunması çərçivəsinin cari xidmətin çatdırılması praktikalarına təsirləri, digər ölkələrdə (Fransa-İspaniya-İƏİT) tətbiq edilən nümunələrdən hansıların məqsədəuyğun şəkildə tətbiq edilə bilməsi ilə bağlı müzakirələr seminar iştirakçıları tərəfindən maraqla qarşılanıb. Seminarda iştirak edən əcnəbi ekspertlər Fransada idarəetmə qurumları olan istifadəçilərlə əlaqələr üzrə milli xidmət, regional nümayəndəliklər, yerli direktoratlıqlar və qurumların təklif olunan bütün xidmətləri üzrə uyğunluq və ümumi məlumat, səmərəli iş üsullarının və elektron xidmətlərin təşviqi kimi məsələlərə toxunublar. Tədbir iştirakçılarına Fransada vergi ödəyicilərinin xəritəsi haqqında da məlumat verilib.

**Seminar iştirakçıları müzakirələr zamanı xidmət standartlarının qabaqcıl Avropa meyarlarına uyğunlaşdırılmasına, bütün kanallarda xidmətlərin göstərilməsinə və keyfiyyətin yüksəldilməsinə mühüm təsir göstərəcək həll yolları barədə mülahizələrini bildiriblər**

Seminarın sonuncu günündə atılacaq növbəti addımlarla bağlı təkliflər və müzakirələr davam etdirilib.

**Fəxriyyə İKRAMQIZI**

# Azərbaycanda biznes-inkubatorların fəaliyyəti genişləndirilir

İqtisadiyyat nazirinin müavini Sahib Məmmədov bildirib ki, biznes-inkubatorların dəstəklənməsi Azərbaycanda sahibkarlığın inkişafına öz töhfəsini verəcək. Xüsusilə təşəbbüskar, ideyası olan gənclərin sahibkarlıq fəaliyyətinə cəlb olunması, onların peşəkar sahibkar kimi formalaşması ölkədə həyata keçirilən uğurlu gənclər siyasətinə müsbət təsir göstərəcək.

Qeyd edilib ki, Prezident İlham Əliyevin müvafiq fərmanı ilə təsdiq olunmuş «Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi»ndə ölkədə biznes-inkubatorların, startap layihələrinin dəstəklənməsi, eyni zamanda sahibkar düşüncə tərzinin inkişaf etdirilməsi ilə bağlı müvafiq tapşırıqlar verilib. Bu məqsədlə İqtisadiyyat Nazirliyi tərəfindən Azərbaycanda biznes-inkubatorların fəaliyyətinin genişləndirilməsi və dəstəklənməsi, xüsusilə gənclərin bu prosesə cəlb olunması istiqamətində silsilə tədbirlər həyata keçirilir və Quba-Xaçmaz iqtisadi rayonu üzrə Xaçmazda, Aran iqtisadi rayonu üzrə Yevlaxda biznes-inkubatorların regional mərkəzləri yaradılıb. Quba-Xaçmaz iqtisadi rayonu üzrə yaradılmış biznes-inkubatorun 21 iştirakçısı artıq inkubatorluq mərhələsini keçib. Onlar 2 il müddətində müxtəlif sahələrdə fəaliyyət göstərib, təcrübə qazanıblar. Aran iqtisadi rayonu üzrə də 21 nəfər rezident seçilib və hazırda onlarla iş aparılır.

# Rayonların əksəriyyəti öz qazandıqlarını xərcləyəcək

Milli Məclisin hüquq siyasəti və dövlət quruculuğu, insan hüquqları, gənclər və idman, regional məsələlər və mədəniyyət komitələrinin birgə iclasında büdcə zərfinə daxil olan qanun layihələrinin müzakirəsi zamanı maliyyə nazirinin müavini Azər Bayramovun bildirdiyinə görə, Azərbaycanın 33 rayon və şəhəri 2018-ci ildə xərclərini öz gəlirləri hesabına təmin edəcək.

Qeyd olunub ki, 2018-ci ilin dövlət büdcəsinin gəlirlərinin tərkib hissəsi olan yerli gəlirlər cari illə müqayisədə 4 milyon manat çox - 651 milyon manat proqnozlaşdırılır. Gələn il rayon və şəhərlərin yerli xərcləri 424 milyon manat təşkil edəcək ki, bu da 2017-ci illə müqayisədə 3 milyon manat çoxdur. 2018-ci ildə xərclərini öz gəlirləri hesabına təmin edəcək 33 rayon və şəhər istisna olmaqla, qalan hissənin yerli xərclərinin tənzimlənməsi üçün dövlət büdcəsindən mərkəzləşdirilmiş xərclər üçün ayrılan maliyyə yardımının yerli xərclərin tərkibində xüsusi çəkisi 10,1 faiz olacaq.

# İqtisadiyyatın şaxələndirilməsi mühüm şərtdir



Respublikamızda iqtisadi potensialın və maliyyə imkanlarının artması kənd təsərrüfatı sahəsində mövcud olan imkanlardan istifadə edilməsinə də münbit zəmin yaradır. Bu istiqamətdə davamlı islahatlar aparılır və dövlət aqrar sahənin inkişafına xüsusi diqqət göstərir.

Mövzu ilə bağlı suallarımızı Milli Məclisin deputatı, Aqrar siyasət komitəsinin üzvü Eldəniz Səlimov cavablandırır.

***- Eldəniz müəllim, Azərbaycanın yeni inkişaf modelini qısaca necə səciyyələndirərdiniz?***

- Azərbaycanda yeni inkişaf modeli iqtisadiyyatın inkişafına müasir texnologiyaların tətbiqini, məhsulun idxalından ixracına keçid, iqtisadiyyatın şaxələndirilməsi və digər həllivacib məsələləri özündə ehtiva edir.

Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra, digər sahələrdə olduğu kimi, iqtisadiyyatda da öz suveren hüquqlarını gerçəkləşdirməyə və müstəqil siyasət aparmağa başladı. Bu siyasətin başlıca istiqamətlərini müxtəlif mülkiyyət formaları əsasında yaradılan iqtisadi sistem, bazar iqtisadiyyatına keçid və dünya iqtisadiyyatına inteqrasiya təşkil edir. Son illərdə respublikamızın dinamik inkişafı reallığa çevrilib. Artıq dünya birliyi bunu görür və qiymətləndirir. Dünyanın aparıcı maliyyə qurumları Azərbaycanda həyata keçirilən islahatları təqdir edir. Ölkəmizdə iqtisadiyyatın şaxələndirilməsi istiqamətində mühüm addımlar atılır. Qeyri-neft sektorunun sürətli inkişafı, ixrac və rəqabət imkanlarının genişləndirilməsi iqtisadiyyatın şaxələndirilməsinə yönəldilib.

***- Ölkəmizdə həyata keçirilən islahatlar nəticəsində yeni iqtisadi inkişaf modelinin özünü doğrultduğunu deyə bilərikmi?***

- Bu gün qeyri-neft ixracının genişləndirilməsi, ixracın şaxələndirilməsi baxımından həyata keçirilən tədbirlər ixracla bağlı prosedurların sayının azaldılmasından, ixracın stimullaşdırılmasından əlavə, həm də bu istiqamətdə müxtəlif alətlər vasitəsilə sahibkarlara yeni imkanlar yaradır. «Made in Azerbaijan» brendinin dünyada tanıdılması, ixrac missiyalarının və vahid ölkə stendlərinin təşkili, xaricdə patent və sertifikatların alınmasına dəstək və digər mexanizmlər tətbiq edilir. Qısa müddətdə ixrac missiyaları təşkil olunub, Azərbaycan sahibkarları beynəlxalq sərgilərdə vahid ölkə stendi ilə iştirak ediblər. Bu missiyalar zamanı məhsullarımız xarici bazarlara çıxarılıb, müqavilələr imzalanıb.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində «Bir pəncərə» İxraca Dəstək Mərkəzinin yaradılması Azərbaycanda ixracın stimullaşdırılmasında çox böyük rol oynayır. Mərkəz sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar Azərbaycanda vergi ödəyicisi kimi qeydiyyatdan keçmiş şəxslərlə onların xarici biznes tərəfdaşları arasında sənədlərin, o cümlədən müqavilələrin elektron formada tərtibinə və imzalanmasına, habelə real vaxt rejimində transsərhəd elektron xidmətlərin həyata keçirilməsinə şərait yaradır.

Bu gün Azərbaycan iqtisadiyyatı dünya iqtisadiyyatına inteqrasiya olunur. İqtisadiyyatın sənaye və ticarət sahəsində son vaxtlar aparılan islahatlar, həyata keçirilən layihələr xaricdə ticarət evlərinin yaradılmasının vacibliyini ortaya qoydu, Azərbaycan brendini yaratdı. Azərbaycanın Rəqəmsal Ticarət Qovşağı ilk olaraq elektron ticarət və elektron kommersiya sahəsində dövlət-özəl sektor əməkdaşlığı üçün gözəl bir nümunə oldu. Qovşaq Böyük İpək Yolu üzrə, eyni zamanda Avropa coğrafiyasında vahid elektron məkanın yaradılması baxımından mühüm əhəmiyyətə malik olmaqla yanaşı, həmçinin, müsəlman dünyasında elektron iqtisadiyyatın inkişafı üçün əhəmiyyətli bir qurumdur.

Bütün bunlar bir daha göstərir ki, yeni iqtisadi inkişaf modeli ölkə iqtisadiyyatının inkişafına böyük töhfələr verir.

***- Yeni şəraitdə qeyri-neft iqtisadiyyatının mühüm istiqamətlərindən biri kimi aqrar sektorun inkişafına böyük diqqət göstərilir. Bu sahədə istehsal və ixrac imkanlarının artırılması məqsədilə başlıca amilləri nədə görürsünüz?***

- Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş sosial-iqtisadi inkişaf strategiyasında kənd təsərrüfatı həmişə önəmli yer tutub. Aqrar islahatların Azərbaycan modeli ilə bağlı beynəlxalq təşkilatların hesabatlarında əks olunan fikirləri belə qruplaşdırmaq olar: torpaq islahatı effektivlik və ədalətlilik prinsipləri uğurlu şəkildə əlaqələndirilməklə həyata keçirildi. Bu islahatlar bazar münasibətlərinə sürətli keçid və sahənin davamlı inkişafı üçün möhkəm təməl yaratdı. Sistemli və dayanıqlı inkişafın dövlət tənzimlənməsinin mütərəqqi bir metoduna çevrilmiş regionların sosial-iqtisadi inkişafı dövlət proqramları çərçivəsində kənd təsərrüfatının inkişafı ilə bağlı yeni mexanizmlər tətbiq olundu. Bu baxımdan, regionların sosial-iqtisadi inkişafı siyasəti çərçivəsində kənd yerlərində sosial infrastrukturun inkişafı, kənd təsərrüfatı məhsullarının emalı müəssisələri şəbəkəsinin genişləndirilməsi, fermerlərin istehsal vasitələri ilə təminatının gücləndirilməsi məqsədilə «Aqrolizinq» ASC-nin yaradılması, kənd təsərrüfatı məhsulları istehsalçılarının gübrə, yanacaq və toxumla təminatının yaxşılaşdırılması üçün subsidiyaların verilməsi, meliorasiya-irriqasiya sistemlərinin köklü şəkildə yenidən qurulmasını xüsusi qeyd etmək lazımdır.

İnnovasiya elmi-texniki tərəqqinin yeni texnologiyada və məhsulda öz əksini tapması kimi anlaşıldığına və dərin islahatlar strategiyasının əsasını təşkil etdiyinə görə, dünyanın qabaqcıl ölkələrində kənd təsərrüfatı istehsal edilən məhsulun daha çox elmtutumlu olması istiqamətində inkişaf edir. Ona görə Azərbaycanda da aqrar-sənaye kompleksinin innovasiyalı inkişafı qarşıda duran əsas vəzifədir.

İdarəetmədə şəffaflığın və səmərəliliyin artırılmasının mühüm vasitəsi kimi elektron hökumətin genişləndirilməsi siyasətinə əsasən, «Elektron kənd təsərrüfatı» sisteminin yaradılması istiqamətində qısa müddət ərzində genişmiqyaslı işlər görülüb. Bu sistemin tətbiqi torpaqların və fermerlərin reyestri, habelə heyvanların identifikasiyası komponentləri də daxil olmaqla, kənd təsərrüfatı sahəsi üzrə real və dürüst məlumatların əldə edilməsi deməkdir. Kənd təsərrüfatının inkişafı üçün son illər ayrılan dövlət büdcəsi vəsaitlərinin artım dinamikası bu tədbirlərin miqyası barədə əyani təsəvvür yaradır. Meliorasiya-irriqasiya sisteminin yenidən qurulması, baytarlıq və fitosanitar xidmətlərinin göstərilməsi, elmi tədqiqatların aparılması, vergi güzəştlərinin tətbiqi, subsidiyaların verilməsi və digər məqsədlər üçün yönəldilən dövlət dəstəyinin, o cümlədən kənd təsərrüfatı istehsalçılarına birbaşa subsidiya formasında verilən dövlət büdcəsi vəsaitinin həcmi ardıcıl şəkildə artmaqdadır. Sahibkarlığa Kömək Milli Fondunun kredit portfelinin 65-70 faizi kənd təsərrüfatı istehsalına və kənd təsərrüfatı məhsullarının emalı sahələrinə yönəldilir. Bu yanaşma, təbii olaraq, bütövlükdə ölkə iqtisadiyyatının dünyanın yüksək rəqabət qabiliyyətinə malik iqtisadiyyatları qrupuna yüksəldilməsi ilə bağlı müəyyən edilmiş strategiyaya əsaslanır.

***- Ölkədə iqtisadi aktivliyin artırılması, o cümlədən biznes mühitinin optimallaşdırılması, bütün sahələrdə şəffaflığa nail olunması, idarəetmənin təkmilləşdirilməsi, əhalinin məşğulluğunun təmin edilməsi və digər istiqamətlər üzrə geniş əhatəli islahatlar keçirilib. İqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri təsdiqlənib və artıq yarımillik hesabat verilib. Torpaq, su, meşə resurslarının, habelə mövcud genofondun mühafizəsi və onun səmərəli istifadəsi istiqamətində daha hansı tədbirlərin həyata keçirilməsinə ehtiyac var?***

- Aqrar sahədə yeni aqroparkların yaradılması sürətlə gedir. Sənaye məhəllələri, eləcə də digər istehsal sahələri əhalinin məşğulluğa cəlb edilməsinə xidmət göstərir. Bu günə qədər dövlətin təşəbbüsü və maliyyə dəstəyi ilə 32 iri fermer təsərrüfatı yaradılıb. İndi 38 böyük aqropark yaradılır. Aqroparklar ixrac potensialımızı əsaslı şəkildə artırmağa xidmət edir.

Məşğulluq haqqında qəbul olunmuş qanunlar işsizliyin aradan qaldırılmasına hesablanmışdır. Dövlətimiz tərəfindən qeyri-neft iqtisadiyyatına verilən güzəştlər bu sahələrin inkişafına təkan verən başlıca amillərdəndir və bunun nəticəsində torpaq mülkiyyətçiləri yenidən torpağa qayıdaraq məhsul bolluğu yaradırlar.

Aparılan iqtisadi islahatlar, həyata keçirilən layihələr iqtisadi aktivliyi artırmaqla biznes mühitini formalaşdırır və şəffaflığı artırır. İqtisadiyyatın inkişafında idarəetmənin təkmilləşdirilməsinin mühüm əhəmiyyəti var. Bütün sahələrdə olduğu kimi, iqtisadiyyatda da elm sahəsində səmərəli fəaliyyət göstərən mütəxəssislərin cəlb olunması vacib amillərdəndir. Aparılan iqtisadi islahatların nəticəsində ölkəmizin ərzaq təhlükəsizliyi təmin olunur.

Ölkə Prezidenti tərəfindən təsdiq olunmuş «Milli iqtisadiyyat üzrə Strateji Yol Xəritəsi»ndə göstərildiyi kimi, əlverişli biznes mühitinin yaradılmasında hökumətin aparıcı rolu daha da gücləndirilir. Qəbul olunmuş standartlar beynəlxalq təcrübəyə əsaslanaraq inkişafa təkan verir. Torpaq, su, meşə resurslarının, habelə mövcud genefondun mühafizəsi ilə bağlı qəbul olunmuş qanunlar bu istiqamətdə bir sıra layihələrin həyata keçirilməsinə rəvac verir. Dövriyyədən kənarda qalan torpaqlar araşdırılaraq yenidən dövriyyəyə daxil edilir, sudan səmərəli istifadə məqsədilə yeni su anbarları tikilir və kanallar vasitəsilə suvarılan torpaqların miqdarı artırılır. Bəzi torpaq mülkiyyətçiləri bağlarının suvarılmasında damcı üsulundan istifadə edirlər ki, bu da məhsuldarlıq üçün böyük effekt verir.

**Azərbaycanda qeyri-neft sektorunun sürətli inkişafı, ixrac və rəqabət imkanlarının genişləndirilməsi iqtisadiyyatın şaxələndirilməsinə yönəldilib**

***- Azərbaycanda aqrar bazarın tənzimlənməsi, aqrar sektorun maliyyələşdirilməsi və xarici investisiyaların cəlb edilməsi məsələləri üzrə nə kimi tədbirlər planlaşdırılıb, hansı konkret addımlar atılır?***

- Son vaxtlar ölkəmizdə aqrar bazarın tənzimlənməsinə böyük diqqət yetirməklə məhsul istehsalının regionlaşması sahəsində mühüm işlər görülür. Aqrar sektorda dövlət tərəfindən güzəştli imkanların yaradılması, qismən maliyyələşdirilməsi bu sahəyə investorların cəlb edilməsinə şərait yaradır. İqtisadiyyatın daha səmərəli inkişafı üçün daxili və xarici investorların cəlb edilməsi, bunun üçün də ilk növbədə normal şəraitin olması və onlara təminat verilməsi vacib məsələlərdəndir.

Aqrar islahatların müasir mərhələsində qarşıya qoyulan əsas vəzifələrdən biri də ölkədə kənd təsərrüfatı məhsulları bazarının daha da təkmilləşdirilməsi və fermerlər üçün bazar şərtlərinin daha əlverişli səviyyəyə qaldırılmasıdır. Bu istiqamətdə müəyyən edilmiş strateji prioritetlərə yerlərdə kənd təsərrüfatı məhsullarının satış yarmarkalarının səmərəli təşkilini, onların fəaliyyəti üçün normal şəraitin yaradılmasını, əhali və fermerlərə əlverişli ticarət mühitinin formalaşdırılmasını aid etmək olar. Ticarət (treyder) şirkətlərinin, logistik mərkəzlərin, qablaşdırma və tara təsərrüfatının, kənd təsərrüfatı və ərzaq məhsullarının daşınmasına xidmət edən xüsusi nəqliyyat vasitələri, o cümlədən avtorefrijerator parkının yaradılması dövlət tərəfindən dəstəklənməlidir. Bunlarla yanaşı, daimi fəaliyyət göstərən ixtisaslaşdırılmış «Fermer mağazaları» və «Yaşıl marketlər» şəbəkəsinin yaradılması da zəruridir. Kənd təsərrüfatı və ərzaq məhsulları ixracının artırılması və bu sahədə prosedurların sadələşdirilməsi də əsas məsələlərdəndir.

***- Kənd təsərrüfatının cəlbediciliyinin artırılması üçün daha hansı şərtlər əsasdır?***

- Aqrar islahatların müasir mərhələsi ilə bağlı ölkə başçısı tərəfindən qəbul edilmiş qərarlara əsasən, bu islahatların kənd təsərrüfatı sahəsinin rəqabətqabiliyyətliyinin yüksəldilməsini hədəfləyən aşağıdakı strateji prioritetlər üzrə aparılması nəzərdə tutulur:

- kənd təsərrüfatı məhsulları istehsalçılarının müvafiq istehsal vasitələri və xidmətlərlə təchizatının daha da gücləndirilməsi;
- kənd təsərrüfatı sahəsi üzrə bazar institutlarının və bazar infrastrukturunun inkişaf etdirilməsi hesabına istehsalçıların bazara çıxış imkanlarının daha da yaxşılaşdırılması;
- kənd təsərrüfatı istehsalı üzrə müasir tələblərə uyğun struktur dəyişikliklərinin aparılması;
- kənd təsərrüfatının dövlət tənzimlənməsi üzrə institusional potensialın gücləndirilməsi və idarəetmənin təkmilləşdirilməsi.

Göründüyü kimi, müvafiq strateji prioritetlər həm daxili bazar, həm də ixrac bazarları nəzərdə tutulmaqla müəyyən olunmuşdur. Bununla yanaşı, kənd təsərrüfatı bazarının inkişaf etdirilməsi siyasəti çərçivəsində bir tərəfdən infrastrukturun gücləndirilməsi, digər tərəfdən isə institusional mexanizmlərin təkmilləşdirilməsi məsələləri kompleks şəkildə əhatə edilmişdir.

Hazırda respublikamızda hökm sürən sabitlik investorların ölkə iqtisadiyyatına cəlb olunmasına stimul yaradır və bu gün iqtisadiyyatımızın bir sıra sahələri investorların iştirakı ilə inkişaf edir. Aparılan iqtisadi islahatlar qeyri-neft sektorunun inkişafını daha da sürətləndirir. Ölkə iqtisadiyyatı uğurlu inkişaf mərhələsində olmaqla dünya iqtisadiyyatına inteqrasiya edir. Azərbaycan brendinin yaradılması bu inkişafın bariz nümunəsidir.

*Müsahibəni hazırladı:*
**Fəxriyyə İKRAMQIZI**

# Azərbaycanda 2018-ci və növbəti 3 il üçün iqtisadi proqnozlar...

***Son 3 ildə iqtisadi artımın və ümumi daxili məhsulun (ÜDM) inkişaf göstəricisinin azalması ilə müşayiət olunan Azərbaycan iqtisadiyyatı artıq qarşıdakı ildən etibarən tam stabilləşmə mərhələsinə qədəm qoyacaq və tədricən inkişaf dinamikası yüksələcək. Neft iqtisadiyyatının öz yerini sabit və dayanıqlı qeyri-neft iqtisadiyyatına verməsi makroiqtisadi inkişafa zəmin yaradacaq.***

İqtisadiyyat nazirinin müavini Sevinc Həsənova Azərbaycanın 2018-ci il və növbəti 3 illik sosial-iqtisadi inkişaf göstəricilərinə dair proqnozları şərh edərkən bildirib ki, sistem əhəmiyyətli islahatların davam etdirilməsi, bank sisteminin yaxşılaşdırılması, maliyyə sabitliyinin təmin olunması ilə bağlı dövlət orqanlarının koordinasiyalı fəaliyyyəti, yerli və xarici biznesin stimullaşdırılması, qeyri-neft ixracı ilə məşğul olan sahibkarların ixrac qabiliyyətinin təşviqi siyasətinin həyata keçirilməsi ölkədə ortamüddətli perspektivdə iqtisadi artımın əldə olunacağına nikbinlik yaradır. Hökumətin yaxın və orta dövr üzrə proqnozlarına əsasən, strateji məqsədlər fiskal dayanıqlığın gücləndirilməsi və davamlı monetar siyasətin qəbul edilməsi ilə makroiqtisadi sabitliyin təmin olunması, milli iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi və diversifikasiyasının sürətləndirilməsi, insan kapitalının inkişafı və əhalinin həssas qruplarının təminatının daha da yaxşılaşdırılmasıdır. İnkişaf proqnozlarına görə, 2018-ci ildə ÜDM-in artımı 1,5% təşkil edəcək. Növbəti illər ərzində (2019-2021) makroiqtisadi inkişaf göstəricisi orta hesabla 2,5-3% səviyyəsində proqnozlaşdırılır. Gələn il neft hasilinin 2%-ə yaxın azalması gözlənilir, neft bazarında 60 dollarlıq qiymət indeksinin nəzərə alınmasına baxmayaraq, hökumətin neft gəlirləri üzrə gözləntiləri müəyyən edilmiş proqnoza bərabər olacaq. Bununla yanaşı, qarşıdakı ildə qaz hasilatının orta hesabla 5%-ə qədər artımı gözlənilir və bu faktor da ümumilikdə xarici valyuta daxilolmalarına müsbət təsir edəcək.

S.Həsənovanın sözlərinə görə, hökumətin başlıca hədəflərindən biri manatın məzənnəsinin sabitliyini və inflyasiyanın səviyyəsinin qorunan həddə saxlanılmasından ibarət olacaq. Son 2 ildə aparılan çevik islahatlar adekvat olaraq biznes, fiskal, maliyyə və digər sektorlarda davam etdiriləcək, makroiqtisadi sabitliyin möhkəmləndirilməsi və maliyyə dayanıqlılığının daha da gücləndirilməsi məqsədilə Maliyyə Sabitliyi Şurası nəzarətedici funksiyasını davam etdirəcək.

Milli valyutanın məzənnəsinin sabit qalması, xarici valyutalara qarşı müəyyən həddə dəyərinin artması da istisna olunmur. İxracın artması, Azərbaycanın tranzit-logistika potensialının yüksəlməsi və bunun fonunda həmin sahələrdən ölkəyə xarici valyutanın həcminin artması, həmçinin Bakı-Tbilisi-Qars magistral xəttinin rentabelli işləməsi tədiyyə balansında müsbət dinamikanı təmin edəcək.

2018-2021-ci illərdə Azərbaycanın xarici ticarət dövriyyəsində müsbət saldonun əldə olunacağı və bu faktorun maliyyə sabitliyinə, manatın məzənnəsinə təsir edəcəyi proqnozlaşdırılır. Nəticədə sabit maliyyə sistemi manatı kənar təzyiqlərdən qoruyacaq. Gələn il qeyri-neft sektoru üzrə artımın 3% civarında olacağı gözlənilir. Neftdənkənar sahələrin artım dinamikası isə növbəti 3 ildə təxminən 3,5 -5% təşkil edəcək. 2018-2021-ci illərdə qeyri-neft sənayesi üzrə orta hesabla 7,3%-lik artım nəzərdə tutulur. Aqrar sahədə 2018-ci ildə 6,2%, növbəti 3 ildə isə orta hesabla 6%; turizm sektorunda 6,6%, növbəti 3 ildə isə 6%-dən çox artım proqnozlaşdırılır. İKT sektorunda da növbəti illərdə dinamik inkişaf gözlənilir: gələn il 5,1%, növbəti illərdə 6%-dən yuxarı artım müşahidə olunacaq.




> Ortamüddətli perspektivdə ölkənin makroiqtisadi göstəricilərinin sabit artımına, qeyri-neft sektorunun dayanıqlı inkişafına, maliyyə intizamının gücləndirilməsinə və şəffaflığın daha da dərinləşməsinə nail olmaq əsas məqsədlərdəndir

Qeyd edək ki, Strateji Yol Xəritəsində ÜDM-in strukturunda qeyri-neft sektorunun payının əhəmiyyətli dərəcədə yüksəldilməsi, adambaşına düşən qeyri-neft ÜDM-in və ixracının artırılması kimi əsas hədəflər müəyyənləşib. Bu hədəflərə çatmaq üçün iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması və strukturunun təkmilləşdirilməsi, çoxşaxəli, səmərəli və innovasiya yönümlü iqtisadiyyatın formalaşdırılması, sosial sahədə önləyici inkişaf təmayülünün təmin olunması kimi məqsədlər nəzərdə tutulub. Bununla yanaşı, biznes mühitinin daha da yaxşılaşdırılması, maliyyə xidmətləri bazarının inkişaf etdirilməsi, xarici ticarət və investisiya siyasətinin təkmilləşdirilməsi, İKT və rabitə xidmətlərindən istifadə imkanlarının genişləndirilməsi, innovasiya fəaliyyətinin və insan kapitalının inkişafının təmin edilməsi, institusional potensialın gücləndirilməsi kimi istiqamətlər də bu planın əsas tərkib hissəsidir.

Strateji plana əsasən, ortamüddətli perspektivdə ölkənin makroiqtisadi göstəricilərinin sabit artımına, qeyri-neft sektorunun dayanıqlı inkişafına, maliyyə intizamının gücləndirilməsinə və şəffaflığın daha da dərinləşməsinə nail olmaq, iqtisadiyyatın tənzimlənməsində dövlət büdcəsinin rolunu artırmaq, monetar və büdcə siyasətinin koordinasiyasını gücləndirilmək əsas məqsədlərdəndir. Regionların inkişafının sürətləndirilməsinə, bölgələr arasında mövcud olan sosial-iqtisadi fərqlərin mərhələlərlə aradan qaldırılmasına və balanslaşdırılmış inkişafa nail olunmasına, respublikanın rayon və şəhərlərinin yerli gəlirləri hesabına mərkəzləşdirilmiş xərclərdən ayrılan vəsaitlərin azaldılmasına diqqət artırılacaqdır.

**Elbrus CƏFƏRLİ**

## Vergi ödəyicisinin sualı var...



Samirə Musayeva
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru vergi ödəyicilərinin suallarına cavab verir

### Əlavə dəyər vergisi

***Xarici internet saytından proqram təminatı yüklənilən zaman bank tərəfindən alıcının kart hesabından ƏDV tutulurmu?***

«Elektron ticarət haqqında» Qanunun 1.0.1-ci maddəsinə əsasən, elektron ticarət - informasiya sistemlərindən istifadə edilməklə malların alqı-satqısı, xidmətlərin göstərilməsi və işlərin görülməsi (o cümlədən internet şəbəkəsi vasitəsilə elektron kitabların, musiqinin, audio-video materialların, qrafik təsvirlərin, virtual oyunların, proqram təminatlarının yüklənməsi, reklamların yerləşdirilməsi, digər analoji iş və xidmətlər) üzrə həyata keçirilən fəaliyyətdir.

Vergi Məcəlləsinin 169.3-cü maddəsinin müddəalarına əsasən, vergi orqanlarında uçotda olmayan şəxslər tərəfindən qeyri-rezidentdən elektron ticarət qaydasında işlərin və xidmətlərin alınmasına görə aparılan ödənişlərdən ödəməni həyata keçirən yerli bank, xarici bankın Azərbaycan Respublikasındakı filialı və ya poçt rabitəsinin milli operatoru tərəfindən alıcının vəsaiti hesabına ƏDV hesablanmalı və ödənilməlidir.

**Qeyd olunanlara əsasən:** İnternet şəbəkəsi vasitəsilə proqram təminatlarının yüklənməsinə görə qeyri-rezidentə aparılan ödənişlərdən ödəməni həyata keçirən yerli bank tərəfindən alıcının hesabından 18 faiz dərəcə ilə ƏDV tutularaq dövlət büdcəsinə ödənilir.

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- 2018-ci ildə Azərbaycan iqtisadiyyatına **15,9 milyard** manat həcmində investisiya qoyuluşu proqnozlaşdırılır.
- Gələn il ölkənin turizm sektorunda **6,6%**, sonrakı 3 ildə **6%**; İKT sektorunda **5,1%**, sonrakı illərdə isə **6%**-dən çox artım olacağı gözlənilir.
- Növbəti ildə dövlət və icmal büdcədən qaçqın və məcburi köçkünlərin sosial müdafiəsi ilə bağlı tədbirlərin maliyyələşdirilməsi, o cümlədən onların mənzil və məişət şəraitinin yaxşılaşdırılması üçün bütövlükdə **487 milyon** manat nəzərdə tutulub ki, bu da cari illə müqayisədə **49,5%** və ya **161 milyon** manat çoxdur.
- Neft İxrac edən Ölkələr Təşkilatı (OPEC) Azərbaycanda neft hasilatının 2040-cı ilədək stabil olaraq sutkada **700-800 min** barel səviyyəsində qalacağını proqnozlaşdırır.
- Cari ilin 10 ayı ərzində ölkəmizə gələn xarici vətəndaşların sayı **2 milyon 276 min 600** nəfərdən çox olub.

# Vergi ödəyiciləri ilə partnyorluq münasibətləri genişləndirilir

***Vergi orqanlarının fəaliyyətində şəffaflığın artırılması, vətəndaş-məmur təmaslarının minimuma endirilməsi üçün müasir texnologiyaların tətbiqi, sahibkarların müraciət və şikayətlərinin elektron qaydada cavablandırılması mühüm əhəmiyyət kəsb edir. Vergi ödəyiciləri ilə vergi orqanları arasında şəffaf münasibətlərin qurulması insanların dövlət orqanlarına etimadını gücləndirir.***

Vergilər Nazirliyinin həyata keçirdiyi «Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Tədbirlər Planı»na uyğun olaraq yaradılmış şəffaf vergi partnyorluğu idarələri vergi ödəyiciləri ilə münasibətlərin yenidən qurulmasına xidmət göstərir. İdarələrin xidmət dairəsinə vergi uçotunu şəffaf qaydada aparan, vergi öhdəliklərini vaxtında və tam şəkildə icra edən, riskli əməliyyatlarla bağlı vergi orqanları ilə qarşılıqlı şəkildə məsələlərin həlli istiqamətində tədbirlər görən ödəyicilər daxildir.

Vergi ödəyiciləri «Partnyor vergi ödəyicisi statusu»na malik olmaq üçün bir sıra meyarlara cavab verməlidir. Belə ödəyicilər vergi hesabatlarını vaxtında təqdim etməli, vergiləri tam həcmdə və vaxtında ödəməli, işçilərinin sayını və onlara verilən əməkhaqlarını düzgün bəyan etməli, gücləndirilmiş elektron imzaya sahib olmalı, mühasibat uçotunu beynəlxalq və ya milli uçot standartlarına uyğun, yazışmaları isə əsasən elektron şəkildə aparmalıdırlar. Partnyor ödəyicilərə, ərazi məhdudiyyəti nəzərə alınmadan, «Yaşıl dəhliz prinsipi» əsasında xidmət göstərilir. Burada bir sıra ənənəvi xidmətlərlə yanaşı, İKT-nin son nailiyyətlərinə əsaslanan innovativ xidmətlər də təqdim edilir. Belə xidmətlərə videobağlantılar, çağrı və xidmət mərkəzlərində partnyor ödəyicilərə növbəsiz və sürətli xidmətlərin göstərilməsi, partnyor ödəyicilərin müraciəti əsasında onlar üçün «dəyirmi masa», seminar və konfransların təşkili, xüsusi təlim proqramlarının hazırlanması və s. aiddir. Həyata keçirilən tədbirlər nəticəsində intizamlı vergi ödəyicilərinin sayı artmaqdadır. Bu ilin ilk doqquz ayı ərzində vergi orqanlarına partnyor ödəyici statusunun alınması üçün müraciət edən və ya müvafiq qaydalarda göstərilən meyarlara uyğun olduğu müəyyən edilən 479 vergi ödəyicisinə «Partnyor vergi ödəyicisi statusunun əldə edilməsi barədə» bildirişlər təqdim olunmuşdur. Partnyor ödəyicilərin növbədənkənar qəbulu üçün respublika üzrə 52 xidmət mərkəzinin növbə terminalının proqram təminatında sürətli keçid üçün «Yaşıl dəhliz» adında seçim imkanı yaradılmış və bu sahədə işlər davam etdirilir.

İntizamlı vergi ödəyiciləri üçün yaradılan bu şərait onların vaxtlarına qənaət etməsinə, vergi öhdəliklərini rahat və tez həyata keçirməsinə, yarana biləcək çətinlikləri və problemləri vergi orqanları ilə birgə dərhal aradan qaldırmağa imkan verir və digər vergi ödəyicilərini də vergi öhdəliklərini vaxtında həyata keçirməyə və intizamlı ödəyicilər sırasına qatılmasını stimullaşdırır. Bütün bunlar vergi ödəyiciləri ilə vergi orqanları arasında münasibətlərin daha şəffaf qurulmasına, vergi ödəyicilərinin hüquqlarının genişlənməsinə, tərəfdaşlıq münasibətlərinin dərinləşməsinə əhəmiyyətli dərəcədə müsbət təsir edir.

> Bu ilin ilk doqquz ayı ərzində vergi orqanlarına partnyor ödəyici statusunun alınması üçün müraciət edən və ya müvafiq qaydalarda göstərilən meyarlara uyğun olduğu müəyyən edilən 479 vergi ödəyicisinə «Partnyor vergi ödəyicisi statusunun əldə edilməsi barədə» bildirişlər təqdim olunmuşdur

Vergilər Nazirliyi davamlı olaraq vergi ödəyiciləri üçün «Açıq qapı» günü keçirir. Bu tədbirlərdə görülmüş işlər, xidmət mərkəzlərinin fəaliyyət istiqamətləri, iş prinsipləri, vergi qanunvericiliyi və onun tətbiqi, qüvvədə olan vergilər, onların hesablanması və ödənilməsi qaydaları, vergi ödəyicilərinin və vergi orqanlarının hüquq və vəzifələri, vergi qanunvericiliyinin tətbiqi məsələləri, vergi bəyannamələrinin təqdim olunma müddətləri, vergi güzəştlərindən istifadə edilməsi, vergi borcu haqqında ətraflı məlumatlar verilir, vergi ödəyicilərinə mövcud olan bütün vergi xidmətləri göstərilir.

Bütün regionlarda «İnsan hüquqları aylığı» çərçivəsində vergi ödəyiciləri üçün silsilə tədbirlər təşkil edilir, vergi ödəyicilərinə onların hüquq və vəzifələri izah olunur, şikayət və müraciətlər araşdırılaraq konkret tədbirlər görülür.

Mübahisə doğuran məsələlərlə bağlı məhkəmələrə müraciət etməzdən öncə vergi ödəyicilərinin Vergilər Nazirliyinin Vergi Apelyasiya Şurasında həll etmək imkanları var. 2017-ci ilin 9 ayı ərzində Vergilər Nazirliyinin Apelyasiya Şurasının icraatında 67 müraciət olmuşdur. İcraata götürülmüş müraciətlərdən 16-sı səyyar vergi yoxlamaları, 26-sı kameral vergi yoxlamaları, 7-si operativ vergi nəzarəti, 2-si eyni zamanda həm kameral, həm də səyyar vergi yoxlamaları, 2 müraciət ümidsiz borc məbləğinin silinməsi, 2 müraciət vergitutma metodunun dəyişdirilməsi, 2 müraciət inzibati şikayətin verilməsi üçün buraxılmış müddətin bərpa edilməsi, 2 müraciət bank hesablarına qoyulmuş sərəncamların qanunsuz hesab edilməsi, 1 müraciət isə artıq ödəmənin qaytarılması barədə olmuşdur. Müraciətlərin 11-nin tam, 2-sinin isə qismən təmin olunması barədə müvafiq qərarlar qəbul edilmiş, 2 müraciət üzrə növbədənkənar səyyar vergi yoxlaması təyin olunmuşdur. Bir sıra müraciətlər üzrə vergi ödəyicilərinin şikayətlərinin predmeti ilə bağlı cinayət işinin istintaqının davam etməsi, digərlərinin eyni predmet üzrə iddia ərizələrinə məhkəmə qaydasında baxıldığı üçün onların icraatına xitam verilmişdir. Bir qrup müraciətlər isə geri götürüldüyü, Apelyasiya Şurasının eyni məzmunlu müraciətlər üzrə müvafiq qərarları olduğu və müraciət predmetinin aradan qalxdığı üçün baxılmadan saxlanılmışdır.

Vergi ödəyiciləri ilə vergi orqanları arasında qarşılıqlı etimadın və şəffaflığın artırılması, sahibkarlara daha əlverişli şərait yaradılması və vergi inzibatçılığının təkmilləşdirilməsi məqsədilə Vergi Məcəlləsində bir sıra əlavə və dəyişikliklər edilmiş, vergi orqanlarında ciddi islahatlar aparılmışdır. Bütün bunlar sahibkarlığın inkişafını stimullaşdırmağa, vergi ödəyicilərinin hüquqlarının qorunmasına yönəlmişdir. Məcəlləyə edilən əlavə və dəyişikliklər vergi inzibatçılığının və vergi nəzarətinin təkmilləşdirilməsinə mühüm töhfəsini verir. Sahibkarlıq sahəsində yoxlamaların tənzimlənməsi sahəsində qəbul edilmiş əsasnaməyə uyğun olaraq əlavə tədbirlərin görülməsi isə sahibkarların fəaliyyətinə hər hansı müdaxilənin qarşısını alır. Vergi ödəyicilərinin bəyannamələrinin kameral vergi yoxlaması prosesində tətbiq edilmiş yeni proqram təminatları bu sahədə vergi nəzarətinin səmərəliliyinin əsaslı şəkildə artırılmasına imkan yaratmışdır.

Vergi ödəyicilərinin məlumatlandırılması və maarifləndirilməsi məqsədilə qanunvericilikdə baş vermiş ən son yeniliklər barəsində vergi ödəyicilərinə mütəmadi olaraq bildiriş və SMS-lər göndərilir, dəyişikliklərin mahiyyəti keçirilən görüşlərdə, eləcə də KİV-lərdə ətraflı şəkildə izah edilir. Bu tədbirlər öz nəticəsini vermədikdə və qanunvericiliyin pozulması halları davam etdikdə həmin vergi ödəyiciləri vergidən yayınma nöqteyi-nəzərindən riskli vergi ödəyiciləri hesab olunaraq, Vergi Məcəlləsinin 50-ci maddəsinə əsasən, onlarda vergi nəzarəti tədbirləri keçirilir.

Qeyd edək ki, vergi əməliyyatlarında şəffaflığın təmin edilməsi qısamüddətli kampaniya deyil, ölkə iqtisadiyyatının davamlı inkişafının əsas şərtlərindən biridir.

**Rəşad SADIQOV**

# Korrupsiyaya qarşı mübarizə tədbirləri müzakirə olunub

Noyabrın 6-da Avstriyanın Vyana şəhərində BMT-nin Korrupsiya əleyhinə Konvensiyasına Tərəf Dövlətlərin Konfransının 7-ci sessiyası başlayıb.

Tədbirdə Konvensiyaya tərəf 183 dövləti, müşahidəçi statusuna malik dövlətləri, beynəlxalq təşkilatları və qeyri-hökumət təşkilatlarını təmsil edən 1800-dən çox nümayəndə iştirak edib. Noyabrın 10-dək davam edən sessiyada ölkəmizi Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri İnam Kərimov, Azərbaycan Respublikası Baş prokurorunun müavini - Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev, ölkəmizin Avstriyadakı səfiri Qalib İsrafilov və Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının katibi Kamal Cəfərov təmsil ediblər.

Sessiyada BMT-nin Korrupsiyaya əleyhinə Konvensiyasının icrasına nəzarət mexanizmləri, texniki yardım, aktivlərin geri qaytarılması, preventiv tədbirlər, beynəlxalq əməkdaşlıq və digər sahələr üzrə müzakirələr aparılıb. Azərbaycan nümayəndə heyətinin rəhbəri İnam Kərimov tədbirdə çıxış edərək, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən islahatlardan və dövlət proqramlarından danışıb. O, Azərbaycanın genişmiqyaslı islahatların həyata keçirildiyi, regional əhəmiyyətli enerji və nəqliyyat layihələrinin reallaşdırıldığı, sabitlik, multikulturalizm və yüksək sosial rifah kimi anlayışları özündə birləşdirən məkan olduğunu diqqətə çatdırıb, Azərbaycanın Dünya İqtisadi Forumunun «2017-2018 Qlobal Rəqabətlilik Hesabatı»nda 35-ci yerə layiq görüldüyünü bildirib. Korrupsiyaya qarşı mübarizənin dövlət siyasətində prioritet istiqamət təşkil etdiyini deyən İ.Kərimov ölkəmizin təkmil antikorrupsiya qanunvericiliyə malik olduğunu, bu sahə üzrə ixtisaslaşmış orqanların sistemli fəaliyyət göstərdiyini qeyd edib.

İnam Kərimov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılan, Azərbaycan brendi olan «ASAN xidmət»in uğurlu fəaliyyəti, xarici ölkələrin bu modelə maraqlı olması və bəzi ölkələrdə artıq «ASAN xidmət» modelinin tətbiq edilməsi ilə bağlı tədbir iştirakçılarını məlumatlandırıb.

Qeyd edilib ki, əhaliyə göstərdiyi yüksək səviyyəli xidmətə görə 2015-ci ildə «ASAN xidmət» BMT-nin «Dövlət xidmətlərinin göstərilməsinin təkmilləşdirilməsi» kateqoriyasında 1-ci yerə layiq görülərək xüsusi mükafat və diplomla təltif olunub.

Konfransın gedişatında «ASAN xidmət» brendinin tarixini və fəaliyyətini əks etdirən jurnallar iştirakçılara təqdim edilib.

# Transfer qiymətləndirmə ilə bağlı tvinninq layihəsi həyata keçiriləcək

*Layihə şəffaflığa və vergi daxilolmalarının artmasına xidmət edəcək*

***Avropa İttifaqı (Aİ) 2018-ci ildə Azərbaycanın vergi sistemində yeni bir layihənin - «Transfer Pricing» (transfer qiymətləndirmə) layihəsinin icrasına başlamağı planlaşdırır. Aİ-nin ölkəmizdəki nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas qeyd edib ki, tvinninq yardım aləti çərçivəsində həyata keçirilməsi nəzərdə tutulan layihənin hüquqi-texniki detalları müzakirə olunur və yaxın müddətdə yekunlaşacaq.***

Aİ-nin maliyyə yardımı ilə gerçəkləşdiriləcək layihə transfer qiymətləndirmə sahəsinə beynəlxalq təcrübənin Azərbaycanda tətbiqini nəzərdə tutur. K.Yankauskas bildirib ki, Aİ ilə Vergilər Nazirliyi arasında əməkdaşlığın davam etdirilməsi ölkənin vergi sisteminin inkişafına və qabaqcıl beynəlxalq standartlara tam uyğunlaşdırılmasına öz mühüm töhfəsini verəcək.

Qloballaşma və iqtisadi inkişaf şəraitində beynəlxalq şirkətlərin, transmilli korporasiyaların, maliyyə-investisiya qurumlarının fəaliyyətinin genişlənməsi, rəqəmsal iqtisadiyyatın inkişafı, texnologiyaların, qeyri-maddi aktivlərin rolunun artması, eyni zamanda həmin şirkətlərin müxtəlif vergi sistemlərinə malik ölkələrdə fəaliyyət göstərməsi gəlirlərin yuxarı vergi dərəcəli ölkələrdən aşağı vergi dərəcəli ölkələrə köçürülməsinə və şirkətlər tərəfindən həyata keçirilən vergi planlaşdırılması sahəsində yeni əməliyyatların aparılmasına imkanlar yaradır. Hazırda vergi orqanlarının qarşısında mənfəətlərin ədalətli bölüşdürülməsi məqsədilə transfer qiymətlərinin tətbiqi hallarına xüsusi diqqət yetirilməsi kimi mühüm məsələ dayanır.

Qlobal iqtisadiyyatın iştirakçılarından olan Azərbaycanda çoxsaylı beynəlxalq şirkətlər, korporasiyalar, habelə idxal-ixrac əməliyyatlarını həyata keçirən yerli biznes qurumları fəaliyyət göstərir. Şirkətlərin sayının artması ölkədə iqtisadi aktivliyi gücləndirməklə, investisiya mühitini yaxşılaşdırmaqla yanaşı, vergi orqanları tərəfindən şirkətlərin gəlir və xərclərinin düzgün müəyyən edilməsi və vergitutma ilə bağlı məsələlərin daha dərindən araşdırılması zərurətini yaradır. Bu məqsədlə Azərbaycan Respublikası Prezidentinin «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında sərəncamında nəzərdə tutulan əsas məsələlərdən biri beynəlxalq təcrübə nəzərə alınmaqla vergi ödəyiciləri tərəfindən xərclərin süni şəkildə artırılması hallarının aradan qaldırılmasıdır.

> **Avropa İttifaqı ilə Vergilər Nazirliyi arasında əməkdaşlığın davam etdirilməsi ölkənin vergi sisteminin inkişafına və qabaqcıl beynəlxalq standartlara tam uyğunlaşdırılmasına öz mühüm töhfəsini verəcək**

Vergilər Nazirliyi sərəncamda ona verilmiş tapşırıqların icrası ilə əlaqədar müxtəlif tədbirlər həyata keçirib, Vergi Məcəlləsinə mühüm əhəmiyyət kəsb edən bir sıra əlavə və dəyişikliklər edilərək 2017-ci il yanvarın 1-dən qüvvəyə minib. Məcəlləyə əlavə olunmuş 13.2.65-ci, 14-1-ci, 16.1.4-1-ci və 57.4-cü yeni maddələr, həmçinin 16.1.4-cü maddəyə edilmiş dəyişikliklər məhz vergitutma bazasının azaldılmasının qarşısını almaq məqsədi daşıyır. Vergi Məcəlləsinə transfer qiymətlərinin təqvim ili ərzində Azərbaycan Respublikasının rezidenti ilə onunla qarşılıqlı surətdə asılı olan qeyri-rezident şəxslər üzrə ümumi dəyəri 500.000 manatdan artıq olan əməliyyatlara tətbiq edilməsi nəzərdə tutulub. Bundan əlavə, «Transfer qiymətlərinin müəyyən edilməsi və tətbiqi», habelə «Nəzarət olunan əməliyyatlar barədə arayış» forması və onun tərtib edilməsi qaydaları təsdiqlənib. Hazırda transfer qiymətləri üzrə risklərin analizi sistemi üzərində işlər yekunlaşmaq üzrədir.

Vergilər Nazirliyi «Transfer qiymətlərin müəyyən edilməsi və vergidən yayınma hallarına qarşı tədbirlərin işlənib hazırlanmasında Azərbaycan Respublikası Vergilər Nazirliyinə dəstək» adlı tvinninq layihəsi üzərində işləri də yekunlaşdırıb və sənəd Avropa Komissiyasına təqdim olunub. Layihə vergitutma bazasının genişləndirilməsindəki rolu və aktuallığı baxımından Avropa Komissiyası tərəfindən müsbət qarşılanıb. Tvinninq layihəsinin həyata keçirilməsi ilə bağlı tərəfdaş ölkələrin müəyyən edilməsi üçün tender elan olunub və hazırda tenderdə qalib gəlmiş tərəfdaş ölkə ilə danışıqlar aparılır. Layihənin əsas məqsədi transfer qiymətləri ilə bağlı praktiki məsələlərin inzibatçılığına dair Avropa İttifaqı ölkələrinin uğurlu təcrübəsini öyrənmək və gələcəkdə mövcud qaydaları təkmilləşdirməkdir.

Artıq bu istiqamətdə bir sıra ölkələrlə və tanınmış şirkətlərlə səmərəli əməkdaşlığa başlanılıb. Vergilər Nazirliyinin nümayəndə heyəti bu sahədə kifayət qədər təcrübəsi olan Finlandiyanın Vergi Administrasiyasında və Böyük Britaniyanın Gəlirlər və Gömrük İdarəsində işçi səfərdə olub, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) tərəfindən təşkil edilən seminarlarda iştirak edib. Məlumat bazasının yaradılması məqsədilə transfer qiymətləndirməsi sahəsində dünyanın aparıcı şirkətlərindən olan «Thomson Reuters» şirkəti ilə əməkdaşlıq çərçivəsində vergi orqanı işçiləri üçün təlimlər təşkil olunub.

**Elbrus CƏFƏRLİ**

# Makroiqtisadi sabitlik istiqamətində müsbət meyillər formalaşıb

*Mərkəzi Bankın «Pul siyasəti» icmalının bu ilin doqquz ayını əhatə edən növbəti buraxılışı işıq üzü görüb*




**Azərbaycan iqtisadiyyatının xarici sektoru üzrə proseslər**

İcmalda qeyd olunur ki, 2017-ci ilin 9 ayında Azərbaycanın xarici iqtisadi mövqeyi neftin dünya bazarlarında qiymətinin yüksəlməsi və ticarət tərəfdaşlarında iqtisadi vəziyyətin nisbətən yaxşılaşması, paralel olaraq qeyri-neft ixracının genişləndirilməsi və idxalın əvəzlənməsi istiqamətində görülmüş tədbirlərin təsiri altında formalaşmışdır. Bu dövr ərzində xarici ticarət dövriyyəsi 14,3 milyard ABŞ dolları təşkil etmişdir ki, bunun da 8,1 milyardı ixracın, 6,2 milyard ABŞ dolları isə idxalın payına düşmüşdür. Xarici ticarət balansında 1,9 milyard ABŞ dolları məbləğində müsbət saldo əmələ gəlmişdir. 174 ölkə ilə ticarət əməliyyatları həyata keçirilmişdir.

Ticarət dövriyyəsinin 35%-i Avropa İttifaqı (Aİ) ölkələrinin payına düşmüşdür. Aİ ilə ticarət əlaqələrinin 41%-i İtaliya, 12%-i Almaniya, 8%-i Çexiya, 7%-i isə Portuqaliya ilə həyata keçirilmişdir. MDB ölkələrinin ümumi ticarət dövriyyəsində xüsusi çəkisi 16% olmuşdur. Bu istiqamətdə ticarət dövriyyəsinin 63%-i Rusiya, 21%-i Ukraynanın payına düşmüşdür. Ticarət əlaqələrinin 35%-i digər ölkələrlə saxlanılmışdır. Bu ölkələr qrupunda əsas tərəfdaşlar Türkiyə (39%), Çin (20%), ABŞ (13%), Gürcüstandır (8%).

Doqquz ay ərzində əmtəə ixracı 13,4% azalmışdır. Bu, əsasən, neft sektorunda baş vermişdir: ixracın dəyəri xam neft üzrə 20%, neft məhsulları üzrə isə 10,2% azalma baş vermişdir. Qeyri-neft sektorunda isə ixrac artmışdır. Bu, çay, meyvə-tərəvəz, pambıq lifi, elektrik enerjisi, alüminium ixracında müşahidə olunmuşdur. İxracın həcmi çay üzrə 62,1%, meyvə-tərəvəz üzrə 41,5%, pambıq lifi üzrə 8,5 dəfə, elektrik enerjisi üzrə 2,8 dəfə, alüminium üzrə 21,6% artmışdır.




Ölkədə xarici müəssisə və təşkilatlar tərəfindən əsas kapitala investisiya axınları davam etmişdir. Xarici mənbələrdən əsas kapitala yönəldilmiş investisiyaların həcmi 2017-ci ilin 9 ayında 6,6 milyard manat ekvivalentində olmuşdur ki, bu da əsas kapitala yönəldilmiş ümumi investisiyaların 59,5%-ni təşkil edir. Bu sahədə artım tempi 5,6% olmuşdur. Xarici ölkələr və beynəlxalq təşkilatlar tərəfindən əsas kapitala yönəldilmiş vəsaitin çox hissəsi Böyük Britaniya, Türkiyə, Rusiya, İran, ABŞ, Yaponiya, Malaziya, İsveçrə, Çexiya və Norveç sərmayədarlarına məxsus olmuşdur.

Hesabat dövründə ölkənin strateji valyuta ehtiyatlarının zəruri həcmdə qorunması təmin edilmişdir. Doqquz ayın nəticələrinə əsasən, ölkənin strateji valyuta ehtiyatları 41,9 milyard ABŞ dolları təşkil edərək 33 aylıq mal və xidmət idxalına kifayət etmiş və xarici dövlət borcunu 3,6 dəfə üstələmişdir.

**Makroiqtisadi proseslərdə müsbət təmayül dərinləşir**

2017-ci ilin 9 ayında daxili tələb, əvvəlki illərdə olduğu kimi, iqtisadi artımın başlıca amili olmuşdur. Dövlət Statistika Komitəsinin məlumatına görə, son istehlak xərcləri ötən ilin müvafiq dövrü ilə müqayisədə nominal ifadədə 20,8% artmışdır, real artım tempi isə 6,1% təşkil etmişdir. Həmin xərclərin nominal həcmi 31,1 milyard manat olmuşdur ki, bu da ev təsərrüfatlarının gəlirlərinin 85,8%-ni təşkil edir. Dövr ərzində hər bir istehlakçı orta hesabla ayda 362,5 manatlıq və ya ötən ilin eyni dövrü ilə müqayisədə 47,2 manat çox əmtəə almış və pullu xidmətlərdən istifadə etmişdir.

2017-ci ilin ilk 9 ayında ictimai iaşə dövriyyəsi 3,2%, əhaliyə göstərilən pullu xidmətlərin həcmi isə 0,8% artmışdır. Əhalinin nominal gəlirlərinin artımı istehlak tələbini dəstəkləyən əsas amil olmuşdur: hesabat dövründə əhalinin pul gəlirləri nominal olaraq 8% artmışdır, adambaşına düşən pul gəlirlərinin artımı isə 6,9%, sərəncamında qalan gəlirlər isə 11,5% artaraq 33,2 milyard manat təşkil etmişdir.

**Məşğulluq**

Hesabat dövründə ölkədə iqtisadi fəal əhalinin sayı 5 milyon 71,6 min nəfər təşkil etmişdir. Muzdla çalışan işçilərin sayı 2017-ci ilin 1 sentyabr tarixinə ötən ilin müvafiq dövrü ilə müqayisədə 0,4% artaraq 1 milyon 526,3 min nəfər olmuşdur. Müəssisə və təşkilatlarda muzdla çalışan işçilərin 23,5%-i məhsul istehsalı sahələrində, o cümlədən 7,5%-i tikinti, 6,8%-i emal sənayesi, 3,2%-i kənd təsərrüfatı, 2,2%-i mədənçıxarma sənayesində fəaliyyət göstərmişlər.

**İnflyasiya**

2017-ci ilin sentyabr ayının sonuna doğru illik inflyasiya tempinin azalması müşahidə edilmişdir. Aparılmış sorğular qiymətlərin yüksəlməsi gözləntilərinin nisbətən səngidiyini göstərir. Dövr ərzində orta illik inflyasiya 13,9% təşkil etmişdir. İstehlak qiymətləri indeksinin komponentləri - ərzaq məhsullarının qiymətləri orta illik 17,9%, qeyri-ərzaq məhsullarının qiymətləri 12,5%, xidmətlər isə 9,6% dəyişmişdir.

Orta illik inflyasiyanın 7,6 faiz bəndi ərzağın, 3,3 faiz bəndi qeyri-ərzağın, 3 faiz bəndi isə xidmətlərin payına düşür. Doqquz ay ərzində orta aylıq inflyasiya 0,7% təşkil etmişdir ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 0,3 faiz bəndi aşağıdır. Dövr ərzində ən yüksək inflyasiya yanvar ayında olmuş (2,3%), ən aşağı qiymət isə iyun ayında 1% deflyasiya ilə qeydə alınmışdır.

Ümumilikdə, dövr ərzində 521 adda mal və xidmətdən 93-nün qiyməti azalmış, 94-nün qiyməti isə dəyişməz qalmışdır. Aparılmış təhlillər göstərir ki, 2017-ci ilin 9 ayında inflyasiya başlıca olaraq qeyri-monetar amillərdən qaynaqlanmış, daha çox gözlənti və inersiya xarakterli olmuşdur. İnflyasiyanın xarici faktorlarında isə yüksək volatillik qalmışdır. Ərzaq idxalının və dünya üzrə ərzaq qiymətlərinin artması (5,3%), habelə inzibati qiymətlərin yüksəldilməsi inflyasiyaya təsir göstərmişdir. Qiymətləri dövlət tərəfindən tənzimlənən məhsullar və xidmətlər, həmçinin mövsümi xarakter daşıyan kənd təsərrüfatı məhsulları nəzərə alınmadan hesablanan orta illik baza inflyasiya 13,1% təşkil etmişdir.

***Doqquz ayın nəticələrinə əsasən, ölkənin strateji valyuta ehtiyatları 41,9 milyard ABŞ dolları təşkil edərək 33 aylıq mal və xidmət idxalına kifayət edib və xarici dövlət borcunu 3,6 dəfə üstələyib***




**Pul təklifi**

2017-ci ilin ilk doqquz ayının sonuna manatla pul bazası ilin əvvəlindən 10,3% artaraq 8 milyard 671,2 milyon manat təşkil etmişdir. Manatla pul bazasının struktur elementi olan dövriyyədəki nağd pulun həcmi 11,2% artmışdır. İlin əvvəlində geniş pul kütləsi 11 milyard 546,3 milyon manat olmuş və sentyabrın sonuna 11 milyard 464,5 milyon manat təşkil etmişdir.

Manatla pul kütləsinin strukturunda nağd pul kütləsi, fiziki şəxslərin əmanətləri və hüquqi şəxslərin depozitləri fərqli dinamika nümayiş etdirmişdir: nağd pul kütləsi 11,2%, fiziki şəxslərin manat əmanətləri 30,6% artmış, hüquqi şəxslərin manat depozitləri isə 22% azalmışdır. Fiziki şəxslərin manatla əmanətləri artsa da, xarici valyutada 15% azalma olmuşdur, nəticədə fiziki şəxslərin depozitlərinin dollarlaşması səviyyəsi ilin əvvəlindəki 79,6%-dən 71,8%-ə enmişdir.




**AYTƏN**

## BİR CÜMLƏ - BİR XƏBƏR

Küveytdə ingilis dilində nəşr olunan və böyük oxucu auditoriyasına malik həftəlik «The Times Kuwait» qəzetinin son buraxılışında «Azərbaycan son iqtisadi islahatlardan nəticələr əldə edir» sərlövhəli məqalə dərc edilib.

Bakıda «Şimal-Cənub» Beynəlxalq Nəqliyyat Dəhlizi ilə Belarus-Rusiya-Azərbaycan-İran istiqamətində vaqon və konteynerlərin daşınma imkanlarının araşdırması ilə bağlı müzakirələr aparılır.

2018-ci ilin martın sonunda istifadəyə verilməsi planlaşdırılan İranın Qəzvin və Rəşt şəhərlərini birləşdirən dəmir yolu Azərbaycan ilə Rusiyanın dəmir yolları sistemlərinə qoşulacaq.

«Caspian European Club» və «Caspian American Club» çərçivəsində Azərbaycan-Gürcüstan biznes-forumuna və noyabrın 29-da Gürcüstanda keçiriləcək üçüncü «CEO Lunch Tbilisi»yə iştirakçıların qeydiyyatı davam edir.

Noyabrın 16-da Rusiya Federasiyasının Sankt-Peterburq şəhərinin iş adamlarından ibarət nümayəndə heyətinin ölkəmizə səfəri çərçivəsində Bakıda Azərbaycan-Rusiya işgüzar görüşü keçiriləcək.

# İpoteka kreditlərini almaq şərtləri təkmilləşdirilib

***Bu, kredit alanların sayının artmasına ciddi təsir göstərir***

«Azərbaycan İpoteka Fondu» ASC-nin vəsaiti hesabına ipoteka kreditinin, o cümlədən güzəştli ipoteka kreditinin verilməsi Qaydası»na edilmiş dəyişiklik bu sahədə canlanmaya səbəb olub. Mövzunu şərh edən «Value and Sources Consulting» şirkətinin rəhbəri, iqtisadçı ekspert Rəşad Əliyev bildirib ki, bundan sonra ipoteka krediti ilə orta bazar qiymətindən baha mənzillər də almaq olar: «Məsələ bundadır ki, indiyədək ipoteka kreditləri 1 kvadratmetrinin qiyməti yerləşdiyi ərazidəki orta bazar qiymətindən yüksək olmayan evlərin alınmasına verilə bilərdi. Bundan sonra isə həmin tələb yalnız güzəştli ipoteka kreditlərinə aid ediləcək: güzəştli ipoteka krediti əldə edən vətəndaşlar bahalı mənzil ala bilməzlər, adi ipoteka krediti götürənlərə isə orta qiymətdən baha mənzillər almaq hüququ verilir».

Qaydaya edilən digər dəyişiklik ipoteka ilə satılan mənzillərin hökmən təmirli olması tələbini aradan qaldırıb. Qaydalardan maksimum məbləğlə bağlı tələb də götürülüb: «Əvvəlki qaydaya əsasən, ipoteka kreditinin maksimum məbləği Bakı şəhəri üzrə 7-ci zonada yerləşən, sahəsi 100 kvadratmetr olan təmirli yaşayış sahəsinin 1 kvadratmetrinin orta bazar qiyməti ilə hesablanmış dəyərindən artıq olmamalı idi. İndi isə bu hədd aradan qaldırılıb və kreditin maksimum məbləği ölkədaxili sosial-iqtisadi vəziyyətin təhlili əsasında İpoteka Fondunun Müşahidə Şurası tərəfindən müəyyən edilir. Başqa sözlə, ölkədəki sosial-iqtisadi vəziyyətdən asılı olaraq, ipoteka kreditinin maksimum məbləği artıb-azala bilər. Qaydalarda edilmiş dəyişikliklərdən sonra fond adi ipoteka kreditləri üzrə maksimal məbləği 150.000 manata qaldırıb».

Daha bir maraqlı yenilik ipoteka kreditinin alınan mənzilin dəyərinin hansı hissəsi qədər olmasına, sadə desək, müştəri tərəfindən ödənilən ilkin ödənişin məbləğinə aiddir. Güzəştli və güzəştsiz ipoteka kreditlərində bu məbləğlər fərqlidir. Yəni güzəştli kreditlərdə ilkin ödəniş az olur: «Əvvəlki qaydaya görə, güzəştli ipoteka krediti veriləndə ilkin ödəniş 10% olmalı idi, qalan 90% kredit şəklində verilirdi. Yalnız müştəri rəsmi müraciət etdiyi təqdirdə, onun arzusu ilə ilkin ödəniş artırıla bilərdi. İndi isə bu məsələ yumşaldılıb. Yeni qaydaya əsasən, ilkin ödəniş 10%-dən az olmamalıdır, yəni müştəri istəsə daha artıq ödəniş edə bilər.

Adi ipoteka kreditlərində dəyişiklik daha ciddidir. Əvvəlki qaydaya görə, adi ipoteka kreditlərində ilkin ödəniş 15-25% arasında dəyişə bilərdi, yəni 15%-dən az, 25%-dən isə çox olmamalı idi. Müştəri bu həddən çox ödəmək istədikdə ayrıca müraciət etməli idi. İndi isə ilkin ödənişin yuxarı həddi götürülüb: müştəri azı 15% ilkin ödəniş etməlidir, daha artıq ilkin ödəniş imkanı varsa, məhdudiyyət qoyulmur».

Növbəti dəyişiklik güzəştli kredit almaq hüququ olan kateqoriyaya aiddir. İndiyədək güzəştli kredit almaq üçün ən azı 15 il dövlət qulluğunda işləmək lazım idi. Yeni qaydada göstərilir ki, həmin şəxslərlə yanaşı, azı 15 il dövlət qulluğunun xüsusi növündə xidmət keçən şəxslər də güzəştli kredit ala bilərlər.

Sonuncu dəyişiklik İpoteka Fondunun müvəkkil banklardan ipoteka kreditini hansı şərtlərlə almasına aiddir. Əvvəlki qaydaya görə, fond müvəkkil banklardan ipoteka kreditini kotirovka dərəcəsi ilə alırdı. Bu dərəcə isə Müşahidə Şurası tərəfindən kredit, o cümlədən güzəştli ipoteka krediti üzrə müəyyən olunan illik faiz dərəcələrinin 70%-i qədər olmalı idi. İndi 70% tələbi aradan qaldırılıb, bundan sonra kotirovka dərəcəsini fondun Müşahidə Şurası müəyyən edəcək.

**Güzəştli ipoteka krediti əldə edən vətəndaşlar bahalı mənzil ala bilməzlər, adi ipoteka krediti götürənlərə isə orta qiymətdən baha mənzillər almaq hüququ verilir**

Ekspertin sözlərinə görə, bu dəyişikliklərdən sonra ipoteka krediti alanların sayında əsaslı artım gözlənilir: «Noyabr ayının ilk ongünlüyünə olan məlumata əsasən, İpoteka Fondunun xətti ilə 20 min 569 ipoteka krediti verilib. Fondun saytındakı məlumatlarda isə 2016-cı ilin sonuna ümumilikdə 17.973 ədəd kredit verildiyi qeyd olunub. Belə çıxır ki, fonddan bu ilin 10 ayına 2596 ədəd kredit verilib».

Qeyd edək ki, «Azərbaycan İpoteka Fondu» ASC-nin cəmi aktivləri 2017-ci il oktyabrın 1-nə 874 milyon 415 min manat təşkil edib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 29,25% çoxdur. Fondun aktivlərinin 631 milyon 564 min manatını və ya 72,2%-ni ipoteka kreditləri təşkil edib. Son bir ildə fondun kredit portfeli 17,4% böyüyüb.

**FƏXRİYYƏ**

## ELAN

Cari ilin sentyabr ayından dövlət qulluqçuları və yerli özünüidarəetmə orqanlarının nümayəndələri üçün «Asan İmza» elektron rəqəmsal imzanın yeni tarifinin tətbiqinə başlanılmışdır.

Dövlət müəssisələrinin büdcədən maliyyələşdirilməsi proseduru və alışların əvvəlcədən planlaşdırılması nəzərə alınaraq, dövlət qulluqçuları və yerli özünüidarəetmə orqanlarının nümayəndələri üçün «Asan İmza» elektron rəqəmsal imzanın əldə edilməsi və istismarı prosesini asanlaşdırmaq məqsədilə yeni tarif müəyyən olunmuşdur. Tarif «Asan İmza» dövlət və ya bələdiyyə sertifikatının istifadəsi müddətində (3 il ərzində) başqa əlavə xərclər olmadan 58 manat həcmində birdəfəlik ödənişi nəzərdə tutur.

«ASAN İmza» ilə əlaqədar əlavə sualınız yaranarsa, **Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə**, www.taxes.gov.az və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

VERGİLƏR NAZİRLİYİ

# İnvestisiyalar iqtisadi artımın əsasını təşkil edir

***İnvestisiya mənfəət və ya sosial iqtisadi səmərə əldə etmək məqsədilə iqtisadiyyatın bütün sahələrinə və obyektlərinə qoyulan əmlak və intellektual dəyərlərin bütövlükdə toplusu deməkdir. Hər hansı investisiya layihəsindən yeni bir istehsal həcminin yaradılması və ya mövcud səviyyənin yenilənməsi, böyüdülməsi və gələcək dövrdəki mal və ya xidmətlərin istehsalının planlanması kimi gözləntilər olur.***

İqtisadçı Pərviz Heydərov deyir ki, dünyanın hər yerində iqtisadi artım daim vəsait qoyuluşu tələb edir: «Avtomobilə yanacaq tökülməyəndə hərəkət edə bilmədiyi kimi, iqtisadiyyat da investisiyasız inkişaf edə bilməz. Postneft erasında, başqa sözlə desək, 2014-cü ildən Azərbaycanda iqtisadi həyatın gündəliyində olan vacib məsələlərdən biri investisiyaların cəlb edilməsidir. Bizdə investisiyaların hər il artması neftin dünya bazar qiymətlərinin yüksək olması ilə əlaqədar idi. Üstəlik, hasilat səviyyəsi də bunda az rol oynamırdı. Bu sahədə pik dövr 2010-cu ilə təsadüf etdiyindən, investisiyalar üzrə ən yüksək artım məhz 2010 və 2011-ci illər ərzində qeydə alınıb. 2014-cü ildən isə neftin həm də dünya bazarında qiymətləri kəskin şəkildə ucuzlaşmağa başladı və bunun investisiya qoyuluşlarına ciddi təsiri oldu.

Getdikcə dövlət tərəfindən investisiyalar azalmalı və bu sahədə əsas yük özəl strukturların üzərinə düşməlidir. Ümumiyyətlə, bundan sonra investisiya strategiyasında əsas hədəf iqtisadiyyatın qeyri-neft sektoruna xarici investisiyaların artmasına nail olmaqdır».

P.Heydərovun sözlərinə görə, ölkədə istehsal olunan qeyri-neft məhsulları ixracını həm kəmiyyət, həm də çeşid baxımından genişləndirmək istiqamətində həyata keçirilən tədbirlər keçən ildən sürətləndirilib: «Məsələn, qeyri-neft məhsullarının ixracının stimullaşdırılması ilə bağlı əlavə tədbirlər haqda 2016-cı ilin yanvarın 18-də imzalanan sərəncamda hökumətə kənd təsərrüfatı və emalı məhsullarına ixracla bağlı geri ödəniş dəstəyi vermək, xarici ölkələrə ixrac missiyaları təşkil etmək, xarici bazarları araşdırmaq və marketinq fəaliyyəti, «Made in Azerbaijan» brendini xarici bazarlarda təşviq etmək, yerli şirkətlərin ixracla bağlı xarici ölkələrdə sertifikat və patentlər alması, ixracla əlaqəli tədqiqat-inkişaf proqramına və layihələrə çəkilən xərclərin dövlət büdcəsi hesabına ödənilən hissəsinə dair mexanizmlər hazırlamaq barədə göstərişlər verilib.

2016-cı il martın 1-də isə qeyri-neft məhsullarının ixracının təşviqi ilə bağlı əlavə tədbirlər haqqında sənəd imzalanıb. Bu sənədlə 2016-2020-ci illər ərzində Azərbaycanda istehsal olunan qeyri-neft məhsullarının ixracı ilə məşğul olan şəxslərə dövlət büdcəsindən xüsusi ixrac təşviqi rüsumunun ödənilməsi qaydası müəyyən edilib. Bunlar hamısı stimullaşdırıcı əhəmiyyətə malik tədbirlərdir».

**İndiyədək 200-dən çox investisiya təşviqi sənədinin verilməsi ölkədə yeni iş yerlərinin açılacağı, iqtisadi artım, ixracın genişlənəcəyi və nəhayət, yeni valyuta gəlirləri deməkdir**

P.Heydərovun fikrincə, burada məqsəd iqtisadiyyatın qeyri-neft sektoruna investisiya cəlb etməkdir: «İndiyədək 200-dən çox investisiya təşviqi sənədinin verilməsi böyük nailiyyətdir. Bu, ölkədə yeni iş yerlərinin açılacağı, iqtisadi artım, ixracın genişlənəcəyi və nəhayət, yeni valyuta gəlirləri deməkdir. Bu sayda investisiya təşviqi sənədinin verilməsi ilə ölkəmizə özəl sektor tərəfindən 1,7 milyard manat həcmində investisiya qoyuluşu təmin olunmalıdır. Bu, böyük rəqəmdir. Hesab edirəm ki, ölkə iqtisadiyyatında əsas kapitala investisiya qoyuluşu dinamikası tezliklə öz müsbət nəticələrini göstərəcəkdir».

**F.İKRAMQIZI**

## 2017-ci ilin noyabr ayı ərzində vergi orqanına təqdim edilməli bəyannamələr və ödənilməli VERGİLƏR

**2017-ci ilin oktyabr ayına görə vergi ödəyiciləri tərəfindən tədiyyəçisi olduqları**

- Əlavə dəyər vergisi bəyannaməsi,
- Aksiz bəyannaməsi,
- Yol vergisi bəyannaməsi,
- Mədən vergisi bəyannaməsi,
- Pul vəsaitlərinin nağd çıxarılmasına görə sadələşdirilmiş verginin bəyannaməsi və
- Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsi

**cari ilin noyabr ayının 20-dən** gec olmayaraq vergi orqanına təqdim edilməli və həmin bəyannamələr üzrə hesablanmış vergilər qeyd olunan müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.

- **Daşınmaz əmlakın təqdim edilməsi üzrə sadələşdirilmiş verginin bəyannaməsi cari ilin noyabr ayının 20-dən** gec olmayaraq alğı-satqı müqaviləsini təsdiqləyən notarius tərəfindən vergi orqanına təqdim edilməlidir (vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir).
- **Muzdlu işlə əlaqədar 2017-ci ilin oktyabr ayı üzrə ödəmə mənbəyində hesablanaraq tutulan vergi cari ilin noyabr ayının 20-dən** gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir (ƏDV və sadələşdirilmiş vergi ödəyiciləri bəyannaməni illik - növbəti ildə yanvar ayının 31-dən gec olmayaraq, digər vergi ödəyiciləri 4-cü rüb üzrə bəyannaməni yanvar ayının 22-dən gec olmayaraq təqdim edirlər).
- **Xüsusi notariusların 2017-ci ilin oktyabr ayı üzrə hesabladığı gəlir vergisi cari ilin noyabr ayının 20-dən** gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir (4-cü rüb üzrə bəyannamə yanvar ayının 22-dən gec olmayaraq təqdim edilməlidir).

**Əmlak və torpaq vergisinin ödəyiciləri olan müəssisələr**

- **2017-ci il üzrə hesablanmış torpaq vergisinin yarısını cari ilin noyabr ayının 15-dən** gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.
- **2017-ci ilin 4-cü rübü üzrə hesablanmış əmlak vergisinin cari ödəmələrini noyabr ayının 15-dən** gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

***Bəyannamələr müəyyən edilən müddətdə təqdim edilmədikdə 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir (VM, 57), vergilər vaxtında ödənilmədikdə isə bir ildən çox olmamaqla ötmüş hər bir gün üçün 0,1 faizi məbləğində faiz tutulur (VM, 59).***

**Hörmətli vergi ödəyiciləri, siz öz bəyannamələrinizi və hesablanmış vergiləri Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi Portalı (https://www.e-taxes.gov.az) vasitəsilə elektron qaydada da təqdim edə və ödəyə bilərsiniz. Vergi öhdəliklərinizi vaxtında yerinə yetirməyi tövsiyə edirik.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

## ELAN

ASAN imza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2014-cü ilin noyabr və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2017-ci ilin noyabr və növbəti aylarında bitəcəyindən, ASAN imza sertifikatının yenisini almaq üçün qüvvədə olan ASAN imzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqaviləni və etibarnamələri imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN imza ilə əlaqədar əlavə sualınız yaranarsa, Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə, rəsmi internet saytının «Sual-cavab» bölməsinə www.taxes.gov.az/www.taxes/faq/sual.html və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi

# «Yaşıl kart»dan daha çox minik avtomobili sahibləri yararlanır

Azərbaycan «Yaşıl kart» beynəlxalq sığorta sisteminə 2016-cı ildən qoşulub. Bunun sayəsində xarici ölkələrə səyahət edən azərbaycanlı sürücülərin bu sistemə üzv olan 48 ölkənin ərazisində mülki məsuliyyətinin sığortası təmin edilir.

Sistemin əsas üstünlüyü «Yaşıl kart» sahibinin yol-nəqliyyat hadisəsi törətdiyi zaman yaranan mülki məsuliyyətinin təminat məbləği ilə bağlıdır: hər bir ölkə üzrə təminat məbləğləri müəyyən edilib və əksər ölkələrdə bu məbləğlər olduqca yüksək və hətta məhdudiyyətsizdir. Vurulan zərərin əvəzinin ödənilməsi məqsədilə sistemə üzv ölkələrin hər birində milli «Yaşıl kart» bürosu təsis edilib. Bu bürolar əcnəbi sürücülərin öz avtonəqliyyat vasitələri ilə səbəb olduğu yol-nəqliyyat hadisələri nəticəsində xəsarət almış və ya əmlakına zərər dəymiş üçüncü şəxslərə vurulan zərərlərin əvəzinin sığorta ödənişi formasında veriləcəyinə təminat verir.

«Yaşıl kart» sisteminə daxil olan bu və ya digər ölkəyə Azərbaycan Respublikasında qeydiyyatda olan avtonəqliyyat vasitəsilə səfər edən istənilən şəxs «İcbari sığortalar haqqında» Qanunda təsbit olunduğu kimi, bu sığortanı mütləq qaydada əldə etməlidir .

İcbari Sığorta Bürosundan verilən məlumata görə, 2017-ci ilin oktyabr ayı ərzində 2954 «Yaşıl kart» beynəlxalq sığorta müqaviləsi bağlanılıb: bunların 2213-ü minik, 343-ü yük, 269-u qoşqu, 129-u avtobus kateqoriyası üzrə nəqliyyat vasitələri ilə bağlı olub.

**AYTƏN**

2017-ci il ərzində bağlanan «Yaşıl kart» müqavilələrinin sayı




Oktyabr ayında «Yaşıl kart» müqaviləsi alan nəqliyyat vasitələri




## Elektron qaimə-fakturanın tətbiqi barədə BİLDİRİŞ

**Hörmətli vergi ödəyiciləri!**

Sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı elektron qaimə-fakturanın verilməsi vergi ödəyicilərinin vəzifələrinə aid edilmişdir.

Mövcud qanunvericiliyə əsasən sahibkarlıq fəaliyyəti məqsədləri üçün malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı:

- **ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmış və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 manatdan artıq olan ticarət və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan** vergi ödəyiciləri tərəfindən **2017-ci il 1 aprel tarixindən;**
- **bütün digər vergi ödəyiciləri** tərəfindən **2018-ci il 1 yanvar tarixindən etibarən** elektron qaimə-faktura təqdim edilməlidir.

Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.03.2017-ci il tarixli 89 nömrəli Qərarı ilə müəyyən edilir.

Elektron qaimə-faktura **«Onlayn rejimdə»** Vergilər Nazirliyinin İnternet Vergi İdarəsində (www.e-taxes.gov.az) gücləndirilmiş elektron imza (o cümlədən Asan İmza) vasitəsilə elektron qaydada tərtib edilərək və ya «Lazımi proqramlar»dan istifadə edilməklə **«Oflayn rejimdə»** tərtib edildikdən və elektron imza (o cümlədən Asan İmza) vasitəsilə imzalandıqdan sonra alıcıya göndərilir.

Vergi ödəyicisinin sahibliyində olan malların alışını təsdiq edən qaimə-faktura və ya elektron qaimə-faktura və ya elektron vergi hesab-fakturasından ən azı biri olmadıqda isə alıcıya təqvim ili ərzində belə hala

- birinci dəfə yol verdikdə alınmış malların **10 faizi**,
- ikinci dəfə yol verdikdə **20 faizi**,
- üç və daha çox dəfə yol verdikdə isə **40 faizi miqdarında** maliyyə sanksiyası tətbiq edilir.

Odur ki, qanunvericiliklə nəzərdə tutulmuş hallarda qeyd edilmiş müddətdən etibarən elektron qaimə-fakturanın tətbiqinə başlanılmalıdır. Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

Vergi qanunvericiliyinin tətbiqi və inzibatçılığı ilə bağlı əlavə məlumat almaq üçün Vergilər Nazirliyinin rəsmi internet saytına (www.taxes.gov.az), Çağrı Mərkəzinə (195-1) və vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.

Azərbaycan Respublikası Vergilər Nazirliyi

## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən korrupsiya və digər hüquqpozma hallarına yol verildiyi ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

- * Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;
- * Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik departamentinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik departamentinə» qeydi olan məktubları göndərməklə. Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;
- * Daxili təhlükəsizlik departamentinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə. Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi, Daxili təhlükəsizlik departamenti;
- * Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)

beynəlxalq panoram

# Ukraynada maynerlər vergidən azad oluna bilər

Mayninq müxtəlif kriptovalyutalar (başqa sözlə desək, elektron pul), o cümlədən bitkoinlə komissiya yığımı formasında qazanc əldə etmək məqsədilə göstərilən fəaliyyətdir və bu fəaliyyətlə məşğul olanlar maynerlər adlandırılır.

Ukraynada kriptovalyutanın tənzimlənməsi üçün nəzərdə tutulan qanun layihəsi artıq deputatların müzakirəsinə təqdim edilmişdir. Parlamentin Vergi və gömrük siyasəti komitəsinin rəhbəri Nina Yujaninanın bildirdiyinə görə, bu sənəd kriptovalyuta ilə aparılan əməliyyatlar üçün vergi dərəcəsinin aşağı salınmasını nəzərdə tutur. Bundan əlavə, sənəddə kriptovalyutanın alğı-satqısı, eləcə də mayninq üzrə əməliyyatların vergidən azad edilməsi də planlaşdırılır. Beləliklə, müzakirəyə çıxarılmış qanun layihəsi parlamentdə qəbul edilərsə, Ukraynada mayninq qanuni və gəlirli biznesə çevriləcək. Bir qədər əvvəl Ukrayna hökuməti bitkoini rəsmi ödəniş aləti keyfiyyətində görmədiyini bəyan etsə də, tənzimləyici orqan bu məsələ ilə bağlı öz mövqeyini yenidən qiymətləndirəcəyini istisna etmir. Rəsmi açıqlamada qeyd edilmişdir ki, MDB ölkələri arasında ilk dəfə olaraq Ukraynada kriptovalyutanın tənzimlənməsi ilə bağlı qanun layihəsi hazırlanmışdır.

Bu da maraqlıdır ki, hazırda Rusiyada Ukraynada baş verənlərin əksi olan proses gedir: hökumət mayninqi vergiyə cəlb etmək məqsədilə ona nəzarətin mümkünlüyü məsələsini nəzərdən keçirir. Bunun üçün müvafiq avadanlıqlara nəzarətedici çiplərin quraşdırılacağı gözlənilir.

# Neftin orta tariflə idxal vergisi Vyetnam üçün əlverişlidir



Vyetnamın maliyyə nazirinin müavini bildirmişdir ki, neftin orta tarifə əsaslanan idxalı və yerli benzin istehsalı istehlakçıların xeyrinə olacaq. Vyetnamda, bir qayda olaraq, nazirlik hər rübün birinci ayında neftin orta tarifə əsaslanan idxalı və benzin üçün baza qiymətini elan edir. Bu dəfə vəziyyət fərqli olmuşdur, nazirlik ixrac vergisinin 8,56 faizlik dərəcəsini ilin son rübündə bir ay gec elan etmişdir. Bu dərəcə ilin ilk rübündə 10,56 faiz təşkil edirdi, ikinci və üçüncü rüblərdə isə aşağı salınaraq müvafiq olaraq 10,21 və 9,31 faiz müəyyənləşdirilmişdi.

Kütləvi informasiya vasitələrinin yazdığına görə, son zamanlarda neftin orta tarifə əsaslanan 8,56 faizlik idxal vergisinin dərəcəsi (bu göstərici Cənubi Koreya ilə müqayisədə aşağıdır: orada 10 faiz təşkil edir) idxalın həcminin azalmasına səbəb ola bilər. Buna görə də nazirlik bazardakı dəyişiklikləri diqqətlə izləyəcək və bu addımın atılması ehtiyatlara və benzin tədarükünə təsir göstərəcəyi təqdirdə, Sənaye və Ticarət Nazirliyi ilə yaxından əməkdaşlıq edəcək.

# Yaponiyada vergi islahatı: şirkətlərə əlavə güzəştlər veriləcək

Hökumət 2018-ci ildə həyata keçirməyi planlaşdırdığı vergi islahatları layihəsində şirkətlər üçün bir sıra güzəştlər nəzərdə tutulmuşdur. Dövlət bununla əməkhaqqının artımını və idarəetmə kadrlarının gəncləşdirilməsi prosesinin sürətləndirilməsini stimullaşdırmaq niyyətindədir.

Vergilərin azaldılması işçilərin əməkhaqqını əsaslı şəkildə artıran şirkətlər üçün nəzərdə tutulur. 2015-ci ildə Yaponiyada işçilərin əməkhaqqının artırılması məqsədilə şirkətlərə 2,43 milyard dollar vergi subsidiyası verilsə də, o vaxtdan bəri əməkhaqqında ciddi artım olmamışdır.

Vergi islahatında gənc işçi qüvvəsinin idarə etdiyi kiçik və orta müəssisələr üçün də müəyyən güzəştlər nəzərdə tutulmuşdur. Hökumətin mövqeyinə görə, belə bir addımın atılması yaşlı nəslin təsis etdiyi və hazırda bağlanmaq ehtimalı olan şirkətlərin fəaliyyətini davam etdirməsinə şərait yaradacaq.

Gözlənilir ki, vergi islahatı həyata keçiriləndən sonra Yaponiyada korporativ verginin dərəcəsi 29,75 faiz təşkil edəcək.

# Trampın vergi islahatları narahatlıq yaradır

Amerikanın «theaustralian.com.au» saytının şərhinə əsasən, ABŞ Prezidenti Donald Trampın təklif etdiyi islahat qlobal səviyyədə vergi savaşının başlanmasına yol aça bilər - bu islahat təklifi son 90 ildə dünya ticarətini tənzimləyən müqavilənin taleyini sual altında qoyur.

Korporativ verginin dərəcəsinin 20 faizə endirilməsi indi hamının marağına səbəb olduğu halda, ABŞ-da işləyən və özlərinin offşorlardakı filiallarından mal və xidmətləri satın alan şirkətlər üçün aksiz vergisinin tətbiqi ilə bağlı müddəa vergi ekspertlərində böyük həyəcan yaratmışdır. Yeni təklif çıxılmaya düşən tranzaksiyaları həyata keçirən hər hansı filialdan 20 faizlik vergi yığımı nəzərdə tutur. Bu, royalti ödənişləri, lisenziya yığımları və s. ola bilər. Yeni vergi faizlərə aid edilmir.

Qarşıdakı 10 il ərzində dövlət büdcəsinə 155 milyard dollar vəsait gətirəcəyi təxmin edilən bu cür verginin effekti özünü qlobal səviyyədə göstərəcək, çünki ABŞ-da işləyən beynəlxalq şirkətlərin və onların offşorlarda qeydiyyata alınmış filiallarının hamısı bu vergini ödəməli olacaqlar.

# Latviyada həmrəylik vergisi qeyri-qanuni hesab edilib

Latviyanın Konstitusiya Məhkəməsi həmrəylik vergisinin ölkədə bərabərlik prinsipini pozduğu, ona görə də ya dəyişdirilməli, ya da ləğv edilməli olduğu barədə qərar çıxarmışdır. Bu qərar 37 nəfər vergi ödəyicisinin məhkəməyə müraciətinə əsasən verilmişdir: onlar həmrəylik vergisinin vətəndaşlar arasında ayrı-seçkiliyə şərait yaratdığından şikayətlənmişdilər.

Latviyada tətbiq edilən həmrəylik vergisi faktiki olaraq varlı vətəndaşlardan tutulan əlavə sosial sığorta haqqıdır. 2016-cı il yanvarın 1-dən illik gəlirləri 52.400 avrodan artıq olan şəxslərdən tutulan sosial sığorta haqları geri qaytarılmır. Məhkəməyə müraciət edənlər ayrı-seçkiliyi bunda görürlər ki, həmrəylik vergisi tutulmayan işçilərdən fərqli olaraq, onlar ödədikləri sosial sığorta haqqına mütənasib qaydada sosial təminat vəsaiti almırlar.

Məhkəmə iddiaçıların irəli sürdükləri arqumentlərlə tanış olaraq, həmrəylik vergisinin Latviya Konstitusiyası ilə təsbit edilmiş bərabərlik prinsipini pozduğu barədə qərar çıxarmışdır. Konstitusiya Məhkəməsi hökumətə gələn ilin sonuna qədər bu vergini ya dəyişdirmək, ya da ləğv etmək, eləcə də zərərçəkmiş vətəndaşların itirdikləri gəlirlərin qarşılığı olaraq onlara kompensasiya ödənilməsi məqsədilə qanuni tədbirlərin görülməsi üçün vaxt vermişdir.

# 31 ölkənin transfer qiymətləndirmə üzrə təlimatları yenilənib

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) transfer qiymətləndirmə profillərinin yenilənmiş variantlarını (TPCP) nəşr etdirmişdir. Bu sənəddə OECD-yə üzv olan 31 ölkənin transfer qiymətləndirmə ilə bağlı hazırda qüvvədə olan qanunvericilik aktları və təcrübələri əhatə olunur.

Profillərdə OECD-nin sorğusuna əsasən transfer qiymətləndirmə haqqında qanun layihəsinin əsas aspektləri barədə ölkələrin özləri tərəfindən təqdim edilmiş yenilənmiş və razılaşdırılmış informasiyalar əks olunmuşdur.

Transfer qiymətləndirmənin rəhbər prinsiplərində dəyişikliklərin aparılması üçün OECD/G20-nin bir çox ölkələrdə və yurisdiksiyalarda gəlirlərin bazasının eroziyası və yerdəyişməsi (BEPS) layihəsinin yekunları üzrə BEPS-in 2015-ci il hesabatından irəli gələn tədbirlər görülmüşdür.

Ölkələrin öz vergi rejimlərinə daxil etdikləri digər dəyişikliklərə 2013-cü ildə təsdiqlənmiş təhlükəsiz vergi limanları barədə yenidən nəzərdən keçirilmiş təlimat göstərişləri daxildir. OECD-nin açıqladığı məlumatlara əsasən, yeniləşdirilmiş profillərdə başlıca diqqət ölkələrin daxili qanunvericiliyində transfer qiymətləndirmənin əsas prinsiplərinə yönəldilmişdir ki, buraya «uzun əllər» prinsipi, transfer qiymətləndirmə metodları, müqayisəliliyin təhlili, qeyri-maddi əmlak, qrupdaxili xidmətlər, haqlar ilə bağlı razılaşmalar, mübahisələrin qarşısının alınması və aradan qaldırılması üçün transfer qiymətləndirmənin, inzibati yanaşmaların sənədləşdirilməsi, təhlükəsiz vergi limanları kimi məsələlər daxildir.

Üzv ölkələrə sorğu verilərkən xahiş olunmuşdur ki, TPCP-yə daxil olan informasiyada ölkələrin qanunvericiliyi dəqiq əks etdirilsin və onların OECD-nin transfer qiymətləndirmə ilə bağlı rəhbər prinsiplərinə nə dərəcədə uyğun olduğu aydın göstərilsin.

# Şirin içkilərin vergiyə cəlb olunması ilə bağlı yeni təlimat

Böyük Britaniya hökumətinin noyabrın 3-də nəşr etdirdiyi yeni təlimat gələn ilin aprelindən vergiyə cəlb edilməli olan alkoqolsuz içkilər istehsal edən müəssisələr üçün nəzərdə tutulmuşdur. Yeni vergi tərkibində hər 100 millilitr hesabına 5 qram və daha artıq şəkər olan içkilərin bir litri üçün 0,18 funt sterlinq, hər 100 millilitr hesabına 8 qram və daha artıq şəkər olan içkilərin bir litri üçün isə 0,24 funt sterlinq həcmində tutulacaq. İçkilər vergiyə bu şərtlər daxilində cəlb olunacaq:

- tərkibində 1,2% və ya daha az spirt olduqda;
- ya istifadə üçün hazır olduqda, ya da doğranmış buzla və ya karbon qazı əlavə edilməklə istifadəyə hazır olduqda;
- satış üçün nəzərdə tutulduqda;
- istehsal prosesində şəkərdən, eləcə də tərkibində şəkər olan maddələrdən (məsələn, baldan) istifadə edildikdə.

Tərkibinin ən azı 75 faizi süddən ibarət olan və ya uşaq qidası olan, eləcə də tibbi məqsədlə istifadə edilən içkilər isə vergidən azad edilir.



krossvord

**Yuxarıdan aşağı:** 1.Səudiyyə Ərəbistanında şəhər. Məhəmməd peyğəmbərin qəbri bu şəhərdədir; 2.Yaşına görə boyu balaca olan insanlara deyilir; 3.Mahir qaboy ustası, «Şöhrət» ordenli Azərbaycanın xalq artistinin adı; 4.Dəqiq elmlərdə hansısa halın faktlarının təsviri; 5.Erkən İntibahın ilk nümayəndəsi, Cotto ənənələrini qəbul etmiş, xətti perspektiv prinsiplərindən istifadə edən florensiyalı boyakar (rəssam); 6.Sovet və Rusiya teatr və kino aktyoru, teatr rejissoru, pedaqoq, SSRİ xalq artistinin soyadı. «Baharın on yeddi anı», «Qorxma, mən səninləyəm» filmlərində çəkilib; 7.Kart oyununda termin; 13.Rusiyada çay; 15.Dünya dinlərindən biri; 16.Ovqatın yüksək səviyyəsi, cuşə gəlmək; 17.Tanınmış fransız filoloq, şair, tərcüməçi; 18.Quranda 55-ci surə; 20.Skandinav mifologiyasında tanrılardan biri; 21.Məşhur Azərbaycan yazıçısı, «Xəyyam» pyesinin, «Ana» dram əsərinin müəllifinin adı.

**Soldan sağa:** 1.Azərbaycan nağıllarında uşaqların çox sevdiyi cəsur, qəhrəman, xeyrxah personaj; 8.İki seçim (adətən, arzu olunmayan) arasında qalmaq; 9.Fosfororqanik zəhərləyici maddə. Bu, iysiz və rəngsiz qaz kimyəvi silahlar qrupuna daxildir; 10.Asiyada dövlət; 11.Astara rayonunda qəsəbə; 12.Qorxu, dəhşət (rusca); 14.Müəyyən qrup və şəxslərin, korporativ dairələrin, eləcə də dövlətlərin maraqlarını təmin edən təşkilatlanmış qurum; 19.Avstraliyanın gerbində təsvir olunmuş heyvanlardan biri; 21.Səudiyyə Ərəbistanının ikinci böyük şəhəri və maliyyə paytaxtı; 22.Görkəmli Amerika yazıçısı, jurnalisti və ictimai xadimi. «Tom Soyerin macəraları», «Şahzadə və dilənçi» və s. əsərlərin müəllifi; 23.Damar və arteriyaların deformasiyası nəticəsində əmələ gələn xəstəlik; 24.Qərbi Azərbaycanın Göyçə mahalında kənd; 25.Parlament tərəfindən insan hüquq və azadlıqlarının müdafiəçisi kimi səlahiyyət verilən, dövlət funksiyalarının daşıyıcısı olan vəzifəli şəxslərin üzərində birbaşa parlament nəzarətini həyata keçirən, etibarlı şəxs;



*Azərbaycan nağılları personajlarından biri*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Şeytan; 2.Dinamit; 3.İdrak; 4.Sparta; 5.Çarıq; 6.Dekart *(Rene)*; 9.Miki; 13.Yoqa; 15.Atlanta; 16.Amitoz; 17.İnfant; 18.Paştet; 20.Çinar; 21.Harun. **Soldan sağa:** 1.Şadlinski *(Abbasqulu bəy)*; 5.Çad; 7.Yanardağ; 8.Ürək; 10.Aymak; 11.Triqqer; 12.Ştayn; 14.Milax; 19.Miçiqan; 21.Halva; 22.Tunc; 23.Patronat; 24.Zar; 25.İntendan.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 15000

## idman

# Güləşçilərimiz beynəlxalq turnirdə uğurla çıxış ediblər

Xəbər verdiyimiz kimi, Moskvada güləş üzrə Avropa Millətlər Kuboku - Alrosa Kuboku beynəlxalq turniri keçirilib. Yarışda sərbəst və qadın güləşi üzrə yığma komandalarımız mübarizə aparıblar. Turnirdə iştirak edən sərbəst güləşçilərimiz Rusiya, Gürcüstan və Moldova yığmaları ilə yarışıblar.




Gürcüstan və Moldova yığmaları üzərində 7:1 hesablı qələbə qazanan idmançılarımızın sonuncu qarşılaşması Rusiya ilə olub. Bunadək isə Rusiya komandası da hər iki görüşü qələbə ilə başa vurub. Final xarakteri daşıyan Rusiya-Azərbaycan qarşılaşması 5:3 hesabı ilə ev sahiblərinin qələbəsi ilə başa çatıb. Azərbaycan yığması isə turniri ikinci sırada tamamlayıb.

Yeddi idmançı ilə turnirdə iştirak edən qadın güləşçilərimiz Rusiya, Ukrayna və Rumıniya güləşçiləri ilə yarışıblar. 8 çəki dərəcəsində keçirilən yarışda qadın güləşçilərimiz ilk olaraq Rumıniya yığması ilə qarşılaşıb. 4:4 hesablı bərabərlik qeydə alınan görüş rəqibin üstünlüyü ilə başa çatıb. Ardınca Ukrayna yığmasını 5:3 hesabı ilə məğlub edən güləşçilərimiz son görüşdə Rusiyaya uduzub və turniri üçüncü sırada tamamlayıblar.

# 7 yaşlı azərbaycanlı qızın beynəlxalq turnirdə parlaq çıxışı

Macarıstanın Pecs şəhərində bədii gimnastika üzrə XIII Beynəlxalq Pecs Kuboku turniri keçirilib. Yarışda iştirak edən 7 yaşlı həmyerlimiz Mina Abbasova fəxri kürsünün ən yüksək pilləsinə qalxaraq turnirin qızıl medalına layiq görülüb. Turnirdə ev sahibi Macarıstan ilə yanaşı, Xorvatiya, İsrail, Avstriya, Rusiya, Bosniya və Herseqovina, Polşa, Serbiya, Birləşmiş Ərəb Əmirlikləri, İsveç, Almaniya, Moldova, Slovakiya, Sloveniya, Belçika və s. olmaqla ümumilikdə 15-dən çox ölkənin təmsilçiləri iştirak ediblər.



Mina Abbasova artıq iki ildir Budapeştdə fəaliyyət göstərən «Rus RG Sport» klubunda gimnastika ilə məşğul olur. Beş yaşından başlayaraq iştirak etdiyi bütün beynəlxalq yarışlarda parlaq çıxışı ilə yaşıdlarından fərqlənən Mina Abbasova Almaniya, Serbiya və Sloveniyada keçirilən beynəlxalq turnirlərdə də fəxri kürsünün yüksək pillələrinə qalxıb. Həmin yarışlarda Mina ailəsinin hazırda yaşadığı ölkəni - Macarıstanı təmsil etsə də, ən böyük arzusu turnirlərdə Azərbaycan bayrağını dalğalandırmaqdır. M.Abbasova dekabrın 9-da Budapeştdə keçiriləcək XIII Beynəlxalq «Mikulaş» yarışında, dekabrın 16-da isə Lüksemburqda VI dəfə təşkil olunacaq «Lüksemburq Kuboku-2017» Beynəlxalq turnirində iştirak edəcək.

# İsveç millisindən italyanlara sərt sillə...

## Dördqat dünya çempionu 60 ildən sonra mundiala həsrət qaldı

Futbol üzrə 2018-ci il dünya çempionatının Avropa zonası üzrə «play-off» mərhələsinin daha bir cavab görüşü çərçivəsində İtaliya millisi İsveçi qəbul edib. Xatırladaq ki, bu komandalar arasında 3 gün əvvəl keçirilmiş ilk görüşdə İsveç yığması 1:0 hesabı ilə qalib gəlmişdi. Ona görə də İtaliya yığması mundiala vəsiqə qazanmaq üçün rəqibini ən azı 2 top fərqi ilə məğlub etməli idi. Lakin meydan sahiblərinin 90 dəqiqə ərzində etdiyi cəhdlər heç bir fayda verməyib, nəticədə skandinaviyalılar qolsuz bərabərliyə nail olaraq gələn ilin yayında Rusiyada keçiriləcək dünya çempionatının final mərhələsinə vəsiqəni təmin ediblər. Dördqat dünya çempionu olan appeninlilər isə 60 ildən sonra ilk dəfə olaraq mundiala qatıla bilməyiblər. Sonuncu dəfə 1958-ci ildə bu aqibətlə üzləşən İtaliya yığması yenidən azarkeşlərini kədərə qərq edib.




# Dünya futbolunun canlı əfsanəsi

İtaliya millisinin qapıçısı Canluici Buffon milli komandanın heyətində 175-ci oyunu kimi tarixə düşüb. Dünya səviyyəli 39 yaşlı futbolçu bu göstərici ilə bütün həmkarlarını qabaqlayıb. Avropada bu kateqoriya üzrə Buffonun ən yaxın izləyicisi İspaniya millisinin qapıçısı İker Kasilyasdır (167 matç). Bu ilin mart ayında Albaniya ilə keçirilən görüşdə forma geyən İtaliyalı qapıçı 168-ci oyununa çıxaraq ispaniyalı həmkarının rekordunu yeniləyib. Bu matç, həmçinin Buffonun karyerasında 1000-ci qarşılaşma olub. Ümumiyyətlə, Avropada milli komandanın heyətində ən çox çıxış edən digər futbolçular aşağıdakılardır: Vitaliys Astafyevs (Latviya, 166 oyun), Martin Reim (Estoniya, 156), Lotar Matteus (Almaniya, 150), Serxio Ramos (İspaniya, 148), Kriştianu Ronaldu (Portuqaliya, 147), Robbi Kin (İrlandiya, 146), Anatoli Timoşçuk (Ukrayna, 144), Anders Svensson (İsveç, 143), Tomas Ravelli (İsveç, 143).




## mozaika

### mədəniyyət

# Səttar Bəhlulzadə qardaş ölkədə xatırlanır

Özbəkistanın «kultura.uz» və «uchildiz.uz» portalları Azərbaycanın Xalq rəssamı Səttar Bəhlulzadə haqqında özbək və rus dillərində məqalələr dərc edib.

Yazılarda Səttar Bəhlulzadənin uşaqlıq və gənclik illəri, rəssamlığa həvəsi, təhsil aldığı illər, tanınmış rəssam Əzim Əzimzadənin ona qayğısı və digər məqamlar öz əksini tapıb. Bildirilir ki, öz yaradıcılığı ilə rəssamlıqda yeni səhifə açan sənətkar milli motivlərə söykənən özünəməxsus bir üslub yaradıb. Səttar Bəhlulzadənin yaratdığı əsərlər Azərbaycanın gənc rəssamları üçün torpağa məhəbbət, adət-ənənələrə bağlılıq simvoluna çevrilib.

Məqalələrdə görkəmli rəssamın məşhur «Kəpəzin göz yaşları», «Azərbaycan nağılı», «Suraxanı atəşgahı», «Naxçıvan. Axşamçağı Ordubad bağlarında», «Bakıda atəşfəşanlıq», «Əmircan», «Neft daşları», Azərbaycanın əsrarəngiz guşəsi olan Quba rayonuna həsr etdiyi «Qudyalçayın yolu», «Qudyalçay vadisi», «Şahdağın ətəyində», «Qızbənövşəyə gedən yol» və digər əsərlərindən söz açılır. Qeyd edilir ki, rəssamın əsərləri Əlcəzair, Misir, Livan, Suriya, Tunis, Norveç, Çexoslovakiya, Bolqarıstan, İraq, Kuba, Kanada, Belçika, Fransa, Yaponiya və bir sıra digər ölkələrdə keçirilən sərgilərdə nümayiş etdirilib. Dünyanın onlarla məşhur muzeyində Səttar Bəhlulzadənin əsərləri daimi ekspozisiyalarda saxlanılır.



«Qədim Şamaxı». Yağlı boya, 69x86.
Səttar Bəhlulzadə

Yazılarda Səttar Bəhlulzadənin əsərlərindən illüstrasiyalar da verilib.

### sağlamlıq

# Dərmandan faydalı...

Düzgün qidalanma üzrə ekspertlər yüzlərlə dərmandan istifadə etmək əvəzinə, soyuducuya baxıb «müalicə almağın» mümkün olduğunu təsdiq ediblər. Hər bir evdə olan ərzaq məhsulları orqanizmin qoruyucu funksiyalarını möhkəmləndirmək xassəsinə malikdir ki, bu da müxtəlif xəstəliklərin inkişafının qarşısını alır.



Bütün sirr ondadır ki, adi ərzaq məhsulları orqanizmi sərbəst radikal və toksinlərdən təmizləmə xüsusiyyətlərinə malik antioksidantlar və digər köməkçi maddələrlə zəngindir. Alimlər təsdiqləyirlər ki, antioksidantlar insan orqanizmində xərçəng hüceyrələrinin yaranmasının qarşısını almaq, hətta əmələ gəlmiş belə hüceyrələrlə mübarizə aparmaq xassəsinə malikdirlər. Bununla yanaşı, antioksidantların köməyi ilə insan ateroskleroz, şəkərli diabet, qocalıq demensiyası və digər xəstəliklərin qarşısını almaqla öz qocalığının qeydinə qala bilər.

Bəzi ərzaqlar dərmanı əvəz edə bilər. Bunlara ədviyyat, kakao, şokolad, treska balığının qaraciyəri, çuğundur, pomidor, kələmin bütün növləri, göyərti, nar, zəncəfil kökü, sarımsaq, yaşıl çay və kök aiddir. Bu ərzaqlar qan dövranını yaxşılaşdıran, damarları təmizləyən, immuniteti möhkəmləndirən, viruslu infeksiyaların, xərçəng hüceyrələrinin inkişafının qarşısını alan, qaraciyərin bərpasına kömək edən və s. xüsusiyyətlərə malikdir.

### texnologiya

# Avtomobil özünü diaqnostika edəcək

Yaxın iki il ərzində Massaçusets Texnologiya İnstitutunun mühəndisləri avtomobilin diaqnostikası sistemi üzərində işləri bitirməyi nəzərdə tuturlar. Belə sistemlə təchiz edilmiş avtomobilin sürücüsü mobil proqram vasitəsilə maşına lazım olan təmir, yürüş, detalların sıradan çıxması barədə məlumat əldə edəcək.

İstehsalçıların qiymətləndirməsinə görə, sistem minik avtomobillərinin sahiblərinə köhnəlmiş və nasaz detalların vaxtında əvəz olunması hesabına ildə orta hesabla 125 dollar qənaət etməyə imkan verəcək. Yük maşınları üçün bu rəqəm ildə 600 dollar təşkil edir. Hesablamaya avtomobilin qəfildən nasaz olması zamanı itirilmiş mənfəət daxil edilməyib.

Tənzimləyicilərdən daxil olan informasiyanın analizi üçün smartfonun prosessorunun gücü kifayətdir və yalnız diaqnostikanın bəzi növləri üçün kompüter lazımdır. Diaqnostikanın dəqiqliyi 90 faizi ötüb. Bundan başqa, sistem heç vaxt mövcud olmayan problem haqqında məlumat verməyərək yanlış məlumatlandırma testindən də keçib.

Prototip yeni şinlərin səsi və vibrasiyasını ayırd edir, hava və yağ filtrlərini, işıqları dəyişdirməyin vaxtını xəbər verir. Mühəndislər sistemi yoxlamaq üçün avtomobilləri icarəyə götürüblər, onları qəzalı vəziyyətə gətirərək diaqnoz qoyublar, sonra isə maşınları təmir edib geri qaytarıblar.

Qeyd edək ki, sistemin onun müəlliflərindən birinin əsasını qoyduğu «Data Driven» startapı vasitəsilə bazara çıxarılması nəzərdə tutulur.




### ekologiya

# Karbon qazından yanacaq...

Hər il fabrik-zavod və avtomobillərdən ayrılan qazlar planetimizin atmosferini həddən çox çirkləndirir. Zərərli tullantıların təmizlənməsi üçün müxtəlif filtrlərdən istifadə edilir, tullantısız istehsalat texnologiyaları axtarıb tapılır. Yanacağın istehsalı üçün zərərli qazlardan istifadə edilməsi daha yaxşı olmazdımı?

ABŞ-ın Kaliforniya Universitetindən olan alimlər eynilə bu cür düşünürlər. Tədqiqatçılar qrupu məsaməli nikel-orqanik fotokatalizatoru yaratmağa nail olub. Material atmosferdəki karbon qazını yığır və onu hidrogen yanacağı almaq üçün karbonun monooksidinə çevirir. Bundan başqa, reaksiyaların kaskadının işə salınması üçün enerji mənbəyi kimi günəş işığının enerjisindən istifadə olunur.

Tədqiqat müəllifinin sözlərinə görə, işıqla aktivləşdirilən material karbon qazını karbonun monooksidinə çevirməklə qiymətli yanacaq əmələ gətirəcək, həmçinin atmosferdə karbon qazının miqdarını azaltmaqla qlobal istiləşmə ilə mübarizədə kömək göstərəcək.

Alimlərin qənaətinə əsasən, yeni maddə zəhərli qazları hopdurmaq xüsusiyyətinə malikdir və onların yenidən emalına, həmçinin hidrogen yanacağının saxlanılması üçün rezervuar kimi istifadəsinə imkan verir.



### Müdriklər deyib ki...

*«Tək iki şey ölüm tanımır: qəhrəmanın hünəri, müdrik insanın sözü».*

Firdovsi (935-1020)

